QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 024 (5496) 7 **fevral** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlətdir

*<u>İlham Əliyev:</u> “Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır”*

Səh 2




**Prezident İlham Əliyev: Azərbaycanda aparılan islahatlar insanların rahat yaşamasına yönəldilib** 3



**Azərbaycanda iqtisadi sahədə əldə edilmiş nailiyyətlər Dünya Bankı tərəfindən yüksək qiymətləndirilir** 5



**Novruz Məmmədov: Seçkilərin daha erkən tarixə təyin edilməsi dövlətin qarşısında duran mühüm məsələlərin həlli baxımından vacibdir** 4



**Siyavuş Novruzov: “Kim gəlir-gəlsin, bizim üçün rəqib yoxdur”** 6



**MSK-nın Prezident seçkiləri ilə bağlı ilk iclası keçirilib** 4



**Davos Forumu: Azərbaycan reallıqlarının etirafı** 6



14 **Baş redaktor Əli Kərimlini belə ifşa etdi**



10 **Azərbaycan “2018 İqtisadi Azadlıq” indeksində irəliləyib**



16 **“Real”-PSJ oyununa biletlərin satışı 1 saat çəkib**



# Azərbaycanda iqtisadi sahədə əldə edilmiş nailiyyətlər Dünya Bankı tərəfindən yüksək qiymətləndirilir

*Prezident İlham Əliyev Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktorunu qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonu qəbul edib. AZƏRTAC xəbər verir ki, Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon Azərbaycanda iqtisadi sahədə əldə edilmiş nailiyyətlər, həyata keçirilmiş uğurlu islahatlar münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı.**

Xanım Mersi Tembon bütün bu müsbət proseslərdə təmsil etdiyi qurumun ölkəmizlə əməkdaşlığından məmnunluq hissi keçirdiyini bildirdi. O, Azərbaycanda əldə olunan bu nailiyyətlərdən insanların faydalandığının şahidi olduqlarını dedi və qeyd etdi ki, iqtisadiyyatın şaxələndirilməsinin təmin edilməsi və iqtisadi inkişafın əldə olunması əhalinin rifah halını yaxşılaşdırır. Xanım Mersi Tembon, eyni zamanda, bildirdi ki, ölkəmizin iqtisadi inkişafı əhalinin işlə təmin edilməsi və müxtəlif fəaliyyət növləri ilə məşğul olması üçün də yaxşı imkan yaradır.

Xoş sözlərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı son illər Azərbaycanda iqtisadi inkişafın yaxşı nəticələr verdiyini vurğuladı.



Prezident İlham Əliyev bildirdi ki, bu, özünü həm makroiqtisadi sahədə, həm real sektorun və eyni zamanda, qeyri-neft sektorunun inkişafında göstərib. Dövlətimizin başçısı qeyd etdi ki, ötən il ölkəmizdə 177 min daimi iş yeri yaradılıb ki, bu da rekord göstərici olub. Qeyri-neft sektorunda 3 faizə yaxın artımın olduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə nəhəng infrastruktur layihələrinin uğurla həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısı bütün bu iqtisadi nailiyyətlərin, öz növbəsində, ölkəmizin davamlı inkişafı və ictimai-siyasi sabitliyin təmin olunması işinə xidmət etdiyini vurğuladı.

Azərbaycanın iqtisadi inkişafının Davos İqtisadi Forumunun hesabatlarında da öz əksini tapdığını qeyd edən Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək dünya miqyasında 35-ci yeri, eyni zamanda, ölkəmizin inkişaf etməkdə olan ölkələr sırasında inklüziv inkişaf indeksinə görə isə 3-cü yeri tutmasını məmnunluqla vurğuladı.

# "Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir"

*Prezident İlham Əliyev ABŞ Dövlət katibi müavininin müşavirini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da ABŞ Dövlət katibi müavininin müşaviri xanım Bricet Brinki qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Azərbaycanın həyata keçirdiyi qlobal layihələrə toxunan Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" layihəsinə ABŞ-ın verdiyi dəstəyin önəmini vurğuladı. Dövlətimizin başçısı ABŞ Dövlət katibi müavininin müşaviri Bricet Brinkin ölkəmizə səfərinin əlaqələrimizin perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.

Bricet Brink ABŞ rəhbərliyinin "Cənub Qaz Dəhlizi" layihəsinə dəstək verdiyini vurğuladı. O, ABŞ-ın ölkəmizin təhlükəsizlik sahəsində əməkdaşlığa, o cümlədən Əfqanıstandakı sülhməramlı əməliyyatlara verdiyi töhfəni yüksək qiymətləndirdiyini bildirdi.



Görüşdə Azərbaycan ilə ABŞ arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə edildi, bu yaxınlarda istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolunun önəmi qeyd olundu, bunun Avropa ilə Asiya arşında yeni nəqliyyat marşrutu olması baxımından önəmi vurğulandı, ABŞ şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyəti, ticarət dövriyyəsinin artırılması və ixrac imkanlarının genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə toxunuldu, sabah Bakıda Minsk qrupunun həmsədrləri ilə görüş zamanı münaqişənin həlli ilə bağlı geniş müzakirələrin aparılacağı bildirildi.

Görüşdə demokratik inkişaf, qanunun aliliyinin təmin edilməsi, insan haqlarının qorunması məsələləri ətrafında da fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev: Azərbaycanda aparılan islahatlar insanların rahat yaşamasına yönəldilib

*"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 51-ci kitabı çapdan çıxıb*

***Bizim siyasətimizin mərkəzində insan amili dayanır, çünki sosialyönümlüdür və Azərbaycanda aparılan islahatlar insanların rahat yaşamasına yönəldilib. Əlbəttə, ağır vəziyyətə düşmüş vətəndaşlarımızın problemlərinin həlli bizim üçün həmişə olduğu kimi, prioritetdir. Dövlətimiz güclü dövlətdir, biz istənilən sınaqdan şərəflə çıxa bilirik və təcrübə də bunu göstərmişdir.***

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 51-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2012-ci il mayın 9-da Zaqatala rayonunda zəlzələ ilə bağlı yaradılan qərargahda keçirilmiş müşavirədə çıxış edərkən söyləyib.




Çoxcildliyin 51-ci kitabı Prezident İlham Əliyevin Bakıda BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa üzrə 28-ci regional konfransının açılış mərasimində iştirakına dair informasiya ilə başlanır.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 51-ci kitabındakı materiallar 2012-ci ilin aprel ayından iyuladək olan dövrü əhatə edir.

Bu cilddə dövlətimizin başçısının Azərbaycanın BMT-yə üzv qəbul olunmasının 20-ci ildönümü ilə bağlı tədbirdə və BMT Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclasında iştirak etmək üçün Nyu-Yorka, NATO-nun sammitində iştirak etmək üçün ABŞ-ın Çikaqo şəhərinə işgüzar səfərlərinə, Rusiya Federasiyasına, Türkiyə Respublikasına işgüzar səfərlərinə, İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 20 illik yubileyi sammitində iştirakına dair materiallar toplanıb.

Azərbaycan Prezidentinin ölkəmizə səfər etmiş Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuy ilə görüşü, habelə İsrail, Rusiya, İordaniya, Bolqarıstan, Türkiyə, Ukrayna, Andorra, Almaniya, Böyük Britaniya, ABŞ, Niderland və başqa dövlətlərin, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Dünya Bankı və digər nüfuzlu qurumların yüksək vəzifəli şəxslərini qəbul etməsi barədə materiallar da nəşrin bu cildində yer alıb.

Nəşrin bu cildinə Prezident İlham Əliyevin Sumqayıt şəhərinə, həmçinin şimal-qərb bölgəsində baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən tədbirlərlə yerində tanış olmaq üçün təbii fəlakət bölgəsinə, o cümlədən Zaqatalaya səfərlərinə, habelə Naxçıvan Muxtar Respublikasına səfərinə, bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşlərinə, bir sıra mədəni-məişət, sosial və sənaye müəssisələrinin açılışında iştirakına dair materiallar da daxil edilib.

Kitabda dövlətimizin başçısının Azərbaycanın uğurlu daxili və xarici siyasətinə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafının həyata keçirilməsinə, cəmiyyətimizin müasirləşdirilməsi istiqamətində önəmli nailiyyətlərə, ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapıb.

Nəşrdə Azərbaycan Prezidentinin ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin, o cümlədən "İqtisadiyyatın inkişafında antiinhisar siyasətinin rolu" mövzusunda beynəlxalq konfransın, "Rusiya-Azərbaycan dialoqu-2012" III Rusiya-Azərbaycan regionlararası forumunun iştirakçılarına müraciətləri yer alıb. Bu cilddə Prezident İlham Əliyevin Koreya Respublikasının nüfuzlu "Diplomacy" jurnalına müsahibəsinin mətni də verilib.

Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri daxil edilib. "Azərnəşr" tərəfindən buraxılan 51-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## Rəsmi xronika

Prezident İlham Əliyev Cavidan Rizvan oğlu Hüseynovun Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycanın baş konsulu vəzifəsinə təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Şahin Şakir oğlu Abdullayevin Azərbaycanın Səudiyyə Ərəbistanında fövqəladə və səlahiyyətli səfiri vəzifəsinə təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Namiq Rəsul oğlu Zeynalovun Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 936-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 968-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

# Bricet Brink: "ABŞ Azərbaycan ilə münasibətlərə xüsusi əhəmiyyət verir"

***Xarici işlər naziri Elmar Məmmədyarov ABŞ Dövlət katibi müavininin müşaviri xanım Bricet Brinkin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Endrü Şöfer də iştirak edib.

Bricet Brink Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və görüş zamanı çox faydalı müzakirələrin aparıldığını bildirib. İki ölkə arasında strateji tərəfdaşlıq üzrə siyasi dialoqun gücləndirilməsinin vacibliyini vurğulayan qonaq ABŞ-ın Azərbaycan ilə münasibətlərə xüsusi əhəmiyyət verdiyini və mövcud ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini diqqətə çatdırıb. Bricet Brink ölkəmizin terrorizmə qarşı mübarizə çərçivəsində Əfqanıstandakı sülhməramlı əməliyyatlara verdiyi töhfəsinin yüksək qiymətləndirdiyini xüsusilə qeyd edib.



Nazir Elmar Məmmədyarov Azərbaycanın da ABŞ ilə münasibətlərin daha da inkişafında maraqlı olduğunu bildirib. Ölkəmizdə aparılan köklü iqtisadi islahatlar barədə danışan nazir iqtisadi sahədə əlaqələrin inkişafı və ABŞ şirkətlərinin Azərbaycanın qeyri-neft sektorunda daha fəal təmsil olunması üçün birgə səylərin artırılmasının vacibliyini vurğulayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlar haqqında məlumat verən Elmar Məmmədyarov ATƏT-in Minsk qrupunun digər həmsədrləri ilə birlikdə ABŞ tərəfindən münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında ədalətli həlli istiqamətində səylərin gücləndirilməsinin vacibliyini vurğulayıb. Nazir bildirib ki, güc tətbiq edərək dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin pozulması cəhdləri qəbuledilməzdir.

Söhbət zamanı tərəflər ölkəmizin təşəbbüsü ilə həyata keçirilən mühüm enerji və nəqliyyat layihələri, xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolu xətti və Cənub Qaz Dəhlizi haqqında müzakirələr aparıblar.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

## İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Turizm Nazirlərinin 11-ci Konfransı Qəbələdə keçiriləcək

Banqladeşin paytaxtı Dəkkə şəhərində keçirilən İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin Turizm Nazirlərinin 10-cu Konfransında Azərbaycan da təmsil olunur. Mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədovun rəhbərlik etdiyi nümayəndə heyətinin iştirakçı ölkələrin nümayəndələri ilə apardığı danışıqlar nəticəsində konfrans zamanı Qəbələ şəhəri 2020-ci il üçün İƏT-in "Turizm paytaxtı" seçilib. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Turizm Nazirlərinin 11-ci Konfransının Azərbaycanın sədrliyi ilə 2010-cu ildə Qəbələdə keçirilməsi qərara alınıb. Həmçinin ölkəmiz İƏT Turizm Koordinasiyası Komitəsinə üzv seçilib. Konfransa fevralın 7-də yekun vurulacaq.

# Novruz Məmmədov: Seçkilərin daha erkən tarixə təyin edilməsi dövlətin qarşısında duran mühüm məsələlərin həlli baxımından vacibdir



Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi Novruz Məmmədov "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamını AZƏRTAC-a şərh edib.

Prezidentin köməkçisi deyib: "Bu gün Azərbaycan artıq dünya birliyində özünəməxsus yer tutan, öz daxilində sabitliyə, təhlükəsizliyə və davamlı inkişafa nail olmuş, genişmiqyaslı regional və beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısına çevrilmiş bir ölkədir. Dünyada baş verən mürəkkəb proseslər, müşahidə olunan təhdidlər fonunda Azərbaycan özünün etibarlı və məsuliyyətli tərəfdaş olduğunu inamla nümayiş etdirib, xalqla rəhbərinin birliyini təmin edib, möhkəmləndirib və qoruyub saxlayır. Bütün bu uğurların təməlində Prezident İlham Əliyevin ümummilli lider Heydər Əliyevin siyasi kursunu davam etdirərək Azərbaycan dövlətçiliyi və xalqı naminə göstərdiyi fəaliyyət dayanır.

Son 15 ildə dövlətimizin başçısının həyata keçirdiyi daxili və xarici siyasət kursu Azərbaycanın sabitliyini, təhlükəsizliyini və davamlı inkişafını təmin edib. Ölkə daxilində siyasi, sosial, iqtisadi, mədəni, elmi, dini və digər sahələrdə aparılmış islahatlar nəticəsində cəmiyyətin həyatının bütün sferalarında ciddi keyfiyyət dəyişikliyi baş verib. Dövlətimizin başçısının siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycan Cənub Qaz Dəhlizi, TANAP, TAP, Bakı-Tbilisi-Qars, Şimal-Cənub Nəqliyyat Dəhlizi kimi böyük və mühüm beynəlxalq layihələrin reallaşmasında aparıcı qüvvəyə çevrilib. Bu gün Azərbaycan öz multikultural və tolerant cəmiyyəti ilə dünya miqyasında mədəniyyətlərarası dialoqa töhfə verən, nümunəvi ölkədir.

Belə bir halda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konstitusiya ilə ona verilmiş hüquqdan istifadə edərək, bu il aprel ayının 11-də növbədənkənar prezident seçkilərinin keçirilməsi haqqında qərar qəbul edib və müvafiq Sərəncam imzalayıb".

Növbədənkənar prezident seçkilərini məqsədəuyğun edən səbəblərlə bağlı fikirlərini bölüşən Novruz Məmmədov qeyd edib ki, 2016-cı ilin sentyabr ayında Konstitusiyaya dəyişikliklərlə bağlı keçirilmiş referendumda Prezidentin səlahiyyət müddəti 5 ildən 7 ilə uzadılıb. Bu, yeni bir tarixi mərhələnin başlanğıcı olduğu üçün dövlət başçısı növbədənkənar seçkilər yolu ilə seçicilərə etimad votumu üçün müraciət edir.

"Seçkilərin daha erkən tarixə təyin edilməsi dövlətin qarşısında duran mühüm məsələlərin həlli və siyasi-iqtisadi resursların yeni dövr üçün daha mütəşəkkil şəkildə səfərbər edilməsi baxımından vacibdir. Şübhəsiz ki, gündəlikdə olan islahatların səmərəsinin artırılması, kadr və struktur islahatlarının aparılması, müvafiq qanunvericilik aktlarının qəbul edilməsi məqsədilə Prezident seçkilərinin aprel ayına təyin edilməsi məqsədəuyğun hesab edilib.

Həmçinin 2018-ci ildə Azərbaycanda onlarla beynəlxalq və yerli əhəmiyyətli tədbirlərin keçirilməsi planlaşdırılıb. Aprel ayının sonundakı Formula-1 yarışlarından başlayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi, Azərbaycan Ordusunun, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının, Azərbaycan parlamentinin 100 illiyi ilə bağlı silsilə tədbirlər, Bakı Beynəlxalq Humanitar Forumu və bu qəbildən olan digər tədbirlərin seçkilər öncəsi və seçkilər dövründə təşkili seçki prosesinə də əlavə çətinliklər yarada bilərdi. Bu səbəbdən, seçkilərin belə mühüm tədbirlərdən əvvəl yekunlaşdırılması daha məqsədəuyğundur", - deyə Prezidentin köməkçisi bildirib.

Novruz Məmmədov vurğulayıb ki, müasir dövrümüzdə beynəlxalq münasibətlər sistemində mövcud olan tendensiyaların intensivliyi, Azərbaycanın yerləşdiyi regionda və daha geniş coğrafiyada baş verən proseslər hər an müəyyən suallar yarada bilər. Bu da hazırlıq səviyyəsinin artırılmasını və xarici siyasətdə çevikliyin nümayiş etdirilməsini tələb edir.

Eyni zamanda, Cənubi Qafqaz regionunda və qonşu regionlarda cərəyan edən neqativ proseslərin getdikcə kəskin xarakter alması və Azərbaycanın da yerləşdiyi bölgəyə təsir göstərməsi ehtimalı mövcuddur. Həmin neqativ təsirləri neytrallaşdırmaq məqsədilə atılan qabaqlayıcı addımlardan biri də Prezident seçkilərinin vaxtının irəli çəkilməsidir.

"Bu gün Azərbaycan siyasi mühitində cənab İlham Əliyevlə müqayisə oluna biləcək, ona rəqib ola biləcək ikinci bir siyasətçi, dövlət xadimi, lider yoxdur. Azərbaycan xalqı dövlət başçısının fəaliyyətinə ən yüksək qiyməti verir və ona sonsuz etimad göstərir. Həm ölkə daxilində, həm də xaricdə heç kim şübhə etmir ki, mahiyyət etibarilə Prezident seçkilərinin ilin hansı ayında olur-olsun keçirilməsi onun nəticələrinə nəzərəçarpacaq təsir göstərə bilməz", - deyə Prezidentin köməkçisi qeyd edib.



# MSK-nın Prezident seçkiləri ilə bağlı ilk iclası keçirilib

Dünən Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, əvvəlcə MSK sədri Komissiya üzvlərini növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə tanış edib.

Sonra növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin təyin edilməsi məsələsinə baxılıb və Komissiyanın qərarı ilə seçkilər 2018-ci il aprelin 11-nə təyin olunub. İclasda seçki qanunvericiliyində nəzərdə tutulmuş tədbirlərin ardıcıl və keyfiyyətlə həyata keçirilməsi, seçki subyektlərinə metodiki yardım göstərilməsi və onların seçki prosesindəki fəaliyyətlərinin sadələşdirilməsi məqsədilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı təsdiq edilib. Komissiyanın iclasında seçki hüquqlarının pozulması ilə əlaqədar hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun yaradılmasına dair məsələyə də baxılıb. Komissiyanın qərarı ilə MSK nəzdində 9 nəfərdən ibarət tərkibdə ekspert qrupu yaradılıb. Qanunvericilikdə nəzərdən tutulmuş müddətdən gec olmayaraq dairə seçki komissiyaları nəzdində 3 nəfərdən ibarət ekspert qruplarının yaradılması isə dairə seçki komissiyalarına həvalə olunub. İclasda həmçinin, növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədin qeydə alınması üçün təqdim edilmiş imza vərəqələrində və onlara əlavə edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə müvafiq dövlət qurumlarının mütəxəssislərindən ibarət işçi qrupu yaradılıb və Komissiyanın üzvü işçi qrupunun rəhbəri təyin edilib. Beynəlxalq təşkilatların, xarici ölkələrin diplomatik nümayəndəliklərinin, eləcə də yerli və xarici kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

# Seçkiqabağı təşviqatın başlama və bitmə müddəti məlum olub



Növbədənkənar prezident seçkilərində prezidentliyə namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin MSK-ya təqdim edilməsi səsvermə gününə ən çox 50 gün, ən azı 30 gün qalanadək, yəni 2018-ci il fevralın 27-dən martın 12-i saat 18.00-dək davam edəcək. SİA-nın məlumatına görə, Mərkəzi Seçki Komissiyasının qəbul etdiyi növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin təyin edilməsi, növbədənkənar prezident seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkətlərin və tədbirlərin Təqvim Planına əsasən, Azərbaycanın bütün ərazisində seçkilərin müşahidəsinin aparılması üçün ərizələr MSK-ya seçkilərin təyin edilməsi barədə qərar qüvvəyə mindikdən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalana qədər, yəni aprel ayının 1-dək MSK-ya təqdim edilməlidir. Seçki dairəsi ərazisində müşahidələrin aparılmasına dair ərizələr seçkilərin təyin olunması barədə qərar qüvvəyə mindikdən başlayaraq seçkilərə 5 gün qalanadək, yəni aprelin 6-dək dairə seçki komissiyalarına təqdim edilə bilər. Seçici siyahılarında əlavə və dəqiqləşdirmələrin aparılması səsvermə gününə azı 35 gün qalanadək, yəni martın 7-ə qədər davam edəcək. Seçkiqabağı təşviqatın aparılması səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlamasına 24 saat qalmış dayandırılır. Bu proses də martın 19-da başlayır, aprelin 10-u saat 8.00-da dayandırılacaq.

# "Növbədənkənar prezident seçkilərinin keçirilməsi qanunauyğundur"



"Bildiyiniz kimi ümumxalq referendumu yolu ilə əsas qanunumuza edilmiş əlavə və düzəlişlərdə prezident səlahiyyətlərinin müddəti 5 ildən 7 ilə artırılıb və yeni seçkilərə bir neçə ay qalırdı. Bu baxımdan ölkəmizdə növbədənkənar prezident seçkilərinin keçirilməsinə dair qərarın qəbul edilməsi Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarımıza tamamilə uyğundur". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Musa Qasımlı deyib.

Növbədənkənar seçkilərin keçirilməsinə dair qərar verilərkən ilk növbədə Ana Qanunumuzun tələblərinin əsas götürüldüyünü deyən deputat prezident seçkilərinin xalqımızın özünə layiq şəkildə keçiriləcəyinə inandığını dilə gətirib. "Bu il ölkəmizdə bir çox tarixi əhəmiyyətli, beynəlxalq səviyyəli toplantılar keçiriləcək. Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illiyi, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi, ordumuzun qurulmasının 100 illiyi və s. Bütün bunları, o cümlədən, prezident seçkilərini xalqımızın özünə layiq şəkildə keçirəcəyinə inanıram. Hesab edirəm ki, xalqımız tam demokratik, azad, şəffaf, ədalətli və bərabər seçkilərdə Prezident İlham Əliyevə yenidən etimad göstərəcək"-deyə, M.Qasımlı qeyd edib.

Qeyd edək ki, fevralın 5-də Prezident İlham Əliyev növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, növbədənkənar prezident seçkiləri 2018-ci il aprelin 11-nə təyin olunub.

# "Uşaqların 97 faizi peyvəndlə əhatə edilib"

Kütləvi peyvəndləmə, həyata keçirilən tədbirlər hesabına qonşu ölkələrdə qeydə alınan yoluxucu xəstəliklər, epidemiyalar Azərbaycandan yan keçir. SİA-nın məlumatına görə, bunu Səhiyyə Nazirliyində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş toplantıda səhiyyə naziri Oqtay Şirəliyev deyib. O bildirib ki, ölkədəki uşaqların 93-97%-i dövlət səviyyəsində həyata keçirilən 11 peyvəndlə əhatə edilib. Nazirin sözlərinə görə, xronoki böyrək çatışmazlığı sahəsində əhaliyə xidmət etmək üçün 34 dializ mərkəzi istifadəyə verilib, 245 min şəkərli diabetdən əziyyət çəkən insan dövlət tərəfindən zəruri dərman vasitələri və nəzarət aparatları ilə təmin edilir. O.Şirəliyev əlavə edib ki, indiyə kimi 55 uşağa sümük iliyi, 500 insana böyrək, 100-ə yaxın insana qaraciyər köcürülüb.

# Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlətdir

## *İlham Əliyev: "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır"*

***Azərbaycan arxada qoyduğu 26 illik müstəqillik tarixində ictimai-siyasi sabitliyin möhkəmlənməsinə nail olmuş, dünya birliyində mövqeyinin güclənməsinə xidmət edən mühüm tarixi nailiyyətlər qazanmışdır. Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycanın inkişaf strategiyası ölkəmizin böyük uğurlar əldə etməsi ilə nəticələnib. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə dövlət siyasətinin həyata keçirilməsi, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi və sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsi, təhlükəsizliyinin, sabitliyin gücləndirilməsi ilə bağlı görülən tədbirlər dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini təmin edib.***

Hər bir ölkənin inkişafında əsas rol oynayan sabitliyin möhkəmlənməsi əsasında Azərbaycanda iqtisadi imkanların genişlənməsi üçün biri-birindən əhəmiyyətli layihələrin icrası sürətləndirilir. Qətiyyətlə deyə bilərik ki, iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması Azərbaycanın dünyanı bürüyən iqtisadi və maliyyə böhranından uzaq olmasına zəmin yaratdı. Hər sahədə qazandığımız uğurların təməlində Prezident İlham Əliyevin qətiyyəti, əzmkarlığı və Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqincə davam etdirilməsi dayanır. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin ilk ilində ona ünvanlanan "Sizcə, Sizi asan işlər gözləyir, yoxsa çətin" sualına "Həm çətin, həm də asan. Asan o mənada ki, artıq Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Ulu Öndər Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda, həyat yerində durmur. Yeni tələblər çıxır, qarşımıza yeni vəzifələr çıxır", - cavabını verir. Bəli, həmin tarixdən 14 il ötür və bu illər ərzində, Azərbaycan uğurlu inkişaf tarixini yaşayıb. "On dörd il ərzində iqtisadi göstəricilərimiz də ümumi inkişafımızın uğurlu dinamikasını əyani şəkildə göstərir", - deyən Cənab İlham Əliyev iqtisadiyyatın 14 il ərzində 3,2 dəfə artdığını bildirib: "Hesab edirəm ki, bu, dünya miqyasında rekord göstəricidir".

### "İNKLÜZİV İNKİŞAF İNDEKSİNƏ GÖRƏ, AZƏRBAYCAN İNKİŞAFDA OLAN ÖLKƏLƏR ARASINDA ÜÇÜNCÜ YERDƏDİR"

Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etmələri ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, beynəlxalq reytinq agentlikləri Azərbaycanda aparılan islahatları yüksək qiymətləndirirlər. Cənab Prezidentin vurğuladığı kimi, Davos Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 35-ci yerə layiq görüb: "Dünya miqyasında 35-ci yeri tutmaq, MDB məkanında isə birinci olmaq çox böyük nəticədir. İnklüziv inkişaf indeksinə görə, Azərbaycan inkişafda olan ölkələr arasında üçüncü yerdədir".



Əlbəttə ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs özündə millətin və dövlətin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları ehtiva edir. Möhtərəm Prezidentin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etməkdədir. Cənab Prezident çıxışlarının birində qeyd edib ki, gündəlik fəaliyyətimizdə Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində əməli-praktiki addımlar atılmışdır: "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz və hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir". Cənab İlham Əliyev hələ 2003-cü ilin oktyabrında respublikamıza rəhbərliyə başlayarkən, ölkədə yoxsulluğun aradan qaldırılacağını əsas məqsədlərindən biri kimi bəyan etmişdir. Görülən işlərin nəticəsində, bu gün Azərbaycanda yoxsulluq 5,4 faiz səviyyəsindədir.

Ölkə rəhbərliyinin yüksək dəqiqliklə seçdiyi və uğurla həyata keçirdiyi məqsədyönlü siyasət sayəsində son 14 ildə ölkə həyatı üçün strateji əhəmiyyət daşıyan inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah prosesinin geniş vüsət alması ilə səciyyəvidir. 14 il ərzində müstəqil Azərbaycan iqtisadi cəhətdən möhkəmlənmiş, qüdrətlənmiş və sosial-iqtisadi yüksəliş, ilk növbədə, insanların gündəlik həyatında özünü daha qabarıq büruzə vermişdir.

Azərbaycan artıq Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Hazırda, mühüm geosiyasi məkan kimi, Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi və ən perspektivli tərəfdaş hesab edilir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz".

Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Belə ki, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Həqiqətən də, Azərbaycan son 14 ildə bütün istiqamətlər üzrə böyük uğurlara imza atıb. Ölkə başçısı İlham Əliyev, çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir:"İkitərəfli əlaqələr inkişaf edir və biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var".

Bəli, ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. "Bu hadisə, təkcə ona görə önəmli deyil ki, biz dünyanın ali orqanına seçildik və orada iki dəfə sədrlik etdik. Ona görə önəmlidir ki, dünyanın 155 ölkəsi bizə səs verdi, özü də çox ağır mübarizə şəraitində", - deyən Prezident İlham Əliyev Azərbaycan əleyhinə birləşən qüvvələrə qarşı bu inam və diqqətin ölkəmizin gücünü və iradəsini bir daha ortaya qoymuş olduğunu bildirib.

### APRELDƏ KEÇİRİLƏCƏK PREZİDENT SEÇKİLƏRİ AZƏRBAYCAN KONSTİTUSİYASININ VƏ ÖLKƏ QANUNVERİCİLİYİNİN TƏLƏBLƏRİNƏ TAM UYĞUNDUR

Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz böyük inkişaf yolu keçib. Bu gün Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, dinamik iqtisadi inkişaf ölkəmizdə istənilən vaxt seçki keçirməyə imkan verir. Təbii ki, ölkəmizdəki mövcud sabitlik xalq-iqtidar birliyi həmrəyliyin ifadəçisidir. Xalq öz seçimində qərarlıdır. Düzgün seçim Azərbaycanın gələcək inkişafının, sabitliyin və əmin-amanlığın təminatıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncama əsasən, Prezident seçkiləri 2018-ci il aprelin 11-nə təyin olunub. Bu il - 2018-ci il prezident seçkilərinin oktyabr ayında keçirilməsi nəzərdə tutulsa da, növbədənkənar seçkilərin ölkəmizdə keçirilməsi haqqında Sərəncam Azərbaycan Konstitusiyanın və ölkə qanunvericiliyinin tələblərinə tam uyğundur. Bu Sərəncam Azərbaycanın milli maraqlarına və inkişafına xidmət edir.

Ölkədə keçirilən seçkilər və onun nəticələri ölkədə sabitliyin və inkişafın qarantıdır. Eyni zamanda, növbəti prezident seçkilərinin aprel ayında keçirilməsinin bir sıra səbəbləri də var. Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun sözlərinə görə, ölkəmizdə may ayından başlayaraq çoxlu sayda mühüm yerli və beynəlxalq səviyyəli tədbirlər keçiriləcək: "Onların sırasında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi çərçivəsində silsilə tədbirləri, Beynəlxalq Humanitar Forumu və digərlərini qeyd etmək olar. Həmin tədbirlərin əksəriyyəti ilin sonuna təsadüf edir və seçkilərlə üst-üstə düşür. Digər tərəfdən, Azərbaycanda mövcud olan praktikaya əsasən, bütün seçkilər payız aylarında keçirilir. Bu mənada, dünyada mövcud olan təcrübəni nəzərə almaqla, müxtəlif səviyyəli seçkilərin ilin ayrı-ayrı fəsillərində, o cümlədən də, əvvəlində keçirilməsi daha məqsədəuyğundur". Prezidentin köməkçisi qeyd edib ki, həmçinin, Azərbaycan Prezidentinin 7 il müddətinə seçilməsi prezident səlahiyyətlərinin yerinə yetirilməsinə təsərrüfat ilinin əvvəlindən başlamasını təmin edir: "Bu da sosial və iqtisadi sahədə qarşıda duran vəzifələrin daha effektli icrasına əlavə imkan yaradır".

Əli Həsənov onu bildirib ki, Azərbaycanda hər 5 ilin 3 ili seçkilərlə bağlı olduğundan, konstitusiyanın 101-ci maddəsinə dəyişiklik edildi və dövlət başçısının səlahiyyət müddəti 5 ildən 7 ilə uzadıldı: "Prezidentin səlahiyyət müddəti 7 il müddətinə uzadıldığına görə, Azərbaycan Respublikası Prezidentinə seçicilərə etimad votumu üçün müraciət imkanı - növbədənkənar prezident seçkilərini elan etmək hüququ verilib. Buna görə də, "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Sərəncamda nəzərdə tutulmuş məsələlər konstitusiyanın və ölkə qanunvericiliyinin tələblərinə tam uyğundur".

Apreldə keçiriləcək seçkilər xalqımızın dövlətçilik maraqlarına da tam uyğundur. Bu gün Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf etdirilir və əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür. Bu gün Azərbaycan, yerləşdiyi bölgədə əsas inkişaf məkanı olmaqla, nəhəng infrastruktur layihələrini icra edir və ölkəmiz Avropanın enerji təhlükəsizliyində son dərəcə vacib faktora çevrilib. Beləliklə, Azərbaycanda bütün istiqamətlərdə böyük inkişafın müşahidə olunması, ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunur. Qeyd etdiyimiz amillər Azərbaycanda vətəndaşların və seçicilərin Prezident İlham Əliyevə yüksək etimadını bir daha təsdiq edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Muxtar respublikada ordu quruculuğu sahəsində uğurlu nəticələr qazanılıb







**Muxtar respublika ərazisində yerləşən hərbi hissələrin maddi-texniki təminatı davamlı olaraq möhkəmləndirilir, ordumuz ən müasir silahlarla təchiz olunur, şəxsi heyətin döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı artırılır. Ordu quruculuğu sahəsində nəzərdə tutulan tədbirlər 2017-ci ildə də uğurla həyata keçirilib.**

AZƏRTAC xəbər verir ki, ötən il Naxçıvan şəhərində Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzi istifadəyə verilib, mərkəzi hərbi xəstəxananın, tibb, texniki qulluq və texniki nəzarət məntəqələrinin, avtomobil dayanacağının, anqarın tikintisi davam etdirilib. Bundan əlavə, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında infrastruktur obyektlərinin tikintisi başa çatdırılıb, sərhəd diviziyasında yaşayış binasının, Qaraçuq kəndi ərazisində sərhəd nəzarət məntəqəsinin inzibati binasının yenidən qurulması, Şərur rayonunda "N" hərbi hissədə infrastruktur obyektlərinin, Babək rayonunda qərargah binasının və texniki istismar hissəsinin inşası aparılıb. Eyni zamanda, Şərur rayonunda qərargah binasının, əsgər yeməkxanasının və əsgər yataqxanasının, Babək rayonunda anqarın tikintisi başa çatdırılıb, Culfa rayonunda dörd, Şahbuz rayonunda üç anqarın tikintisi davam etdirilib.

Qeyd edək ki, muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər mahiyyət etibarilə ötən il daha böyük əhəmiyyət daşıyıb. Belə ki, 2017-ci il oktyabrın 18-də - Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən hərbi parad hər kəsin yaddaşında dərin iz buraxıb. Paradda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordusunun, birləşmə və hissələrinin 2 minə yaxın şəxsi heyəti, 160-dan çox hərbi texnika və silah sistemləri, o cümlədən 10-dan artıq döyüş vertolyotu və təyyarəsi iştirak edib. Bu möhtəşəm tədbir müxtəlif xarici ölkələrin mətbuatında da işıqlandırılıb. Əlahiddə Ümumqoşun Ordunun 2017-ci ildə hazırlıq planına əsasən görülən işlərin nəticələrinə, döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülməsi də ötən ilin əhəmiyyətli uğurlarındandır.

# Siyavuş Novruzov: "Kim gəlir-gəlsin, bizim üçün rəqib yoxdur"

*YAP İcra katibinin müavini, deputat Siyavuş Novruzov "Yeni Müsavat"a prezident seçkilərinin vaxtının dəyişdirilməsi ilə bağlı müsahibə verib*



***- Siyavuş bəy, növbədənkənar prezident seçkiləri ilə bağlı Prezident sərəncamı yəqin sizin üçün də gözlənilməz oldu, eləmi?***

- Yox, gözlənilməz olmadı. Mən sizə əvvəlki müsahibələrimdə də bildirmişdim ki, biz seçkiyə tam hazırıq. Lap günü bu gün də seçki keçirilsə, Yeni Azərbaycan Partiyası tam şəkildə hazırdır. Biz keçən il konfransları keçirtdik, yekunlaşdırdıq. Yəni artıq namizədliyin irəli sürülməsi üçün bizim nümayəndələr hazırdır. O cümlədən rayonlarda qərargahların texniki təchizat məsələləri və digər məsələlər tam həllini tapıb. Belə bir fikir əvvəllər də var idi ki, referendumdan dərhal sonra prezident seçkiləri keçirilsin. Çünki prezidentlik müddəti də dəyişmişdi, 5 ildən 7 ilə artırılmışdı. Həm də bunun hüquqi əsası var idi deyə, bu proses axıra çatdırıla bilərdi. Amma referendumda səlahiyyət verilmişdi ki, Azərbaycan Respublikasının Prezidenti zərurət hesab etdikdə prezident seçkilərini təyin edə bilər. Cənab Prezident də öz səlahiyyətlərindən istifadə edib. Yəni ölkədə keçiriləcək tədbirlərlə, dünyadakı proseslərlə əlaqədar olaraq, seçki vaxtını aprelə müəyyənləşdirdi.

***- Təbii ki, konstitusiya düzəlişlərinə əsasən, bu, dövlət başçısının səlahiyyətlərinə daxil olan məsələdir. Lakin bir müddət öncə məsələn, deputat həmkarınız Zahid Oruc bu barədə təklif irəli sürəndə sizin kəskin reaksiyanız olmuşdu...***

- Bu məsələ qanunla belədir. Biz qanundan kənara çıxıb prezidentin səlahiyyətlərinə qarışa bilməzdik. Mən o məsələni diqqətə çatdırmışdım. Səlahiyyət prezidentindir. Heç kəsə hüquq verilməyib ki, icra strukturunda kiminsə təyin olunması, kiminsə çıxarılması və yaxud kiminsə təltif ya əfv olunmasını götürsün, öz adından istifadə edərək bu barədə məsələ qaldırsın. Mən dəfələrlə Milli Məclisdəki çıxışlarımda da prezidentin səlahiyyətinə kimsə müdaxilə etmək istəyirsə, ona qarşı fikrimi demişəm. Xatırlayırsınızsa, biri deyirdi ki, 15 gündən sonra vitse-prezident təyin olunacaq. Yəni prezidentin səlahiyyəti var, prezident nəyi, nə vaxt etmək lazımdırsa, onu çox gözəl bilir. Bir məsələni də deyim. Prezidentin namizədliyi ilə onun partiyası bilavasitə məşğul olur. Biz bilirdik ki, nəyi, nə vaxt, necə etmək lazımdır. İndi hər şey mətbuat üçün deyil, başa düşürsünüz...

***- Deməli, növbədənkənar seçkilərin keçiriləcəyini qabaqcadan bilirdiniz?***

- (Gülür) Mən bir söz demirəm. Amma bu məsələlər başqa-başqa şeylərdir.

***- Azərbaycandakı seçkilərin aprel ayına keçirilməsinin Rusiya və Ermənistandakı seçkilərlə hansısa əlaqəsi varmı? Bəziləri hesab edir ki, seçkidən sonra Qarabağla bağlı hansısa ciddi qərarlar veriləcək. Bu barədə nə deyə bilərsiniz?***

- Ordakı seçkilərlə heç bir əlaqəsi yoxdur. Hakimiyyətin mənbəyi xalqdır. Azərbaycan xalqı seçir, xalq mövqeyini bildirir. Bəzən fikirlər səslənir ki, filan ölkə belə təsir edəcək, filan ölkədən filan namizəd gəlir və s. Bu, ancaq xalqın tələbi və istəyi olan bir şeydir. Xalq kimə səs verəcəksə, o, ölkənin rəhbəri olacaq. Digər tərəfdən, mən yenə demək istəyirəm ki, bu, bilavasitə cənab prezidentin səlahiyyətinə aiddir. Ölkədə seçki mühiti var, seçki qanunvericiliyi var, ictimai-siyasi sabitlik mövcuddur və hər bir şəxs öz namizədliyini, hər bir siyasi partiya öz namizədini azad şəkildə, qanunun tələbi ilə irəli sürə bilər. Yəni seçki mühiti tam təmin olunub. Nə bir fövqəladə vəziyyət var, nə də başqa vəziyyət. Bu baxımdan bu gün istənilən seçki azad şəkildə keçirilə bilər. Söhbət bundan gedir. Kifayət qədər zaman var ki, hər bir partiya, yaxud fərd öz namizədliyini irəli sürsün və seçki kampaniyasını aparsın.

***- Hesab olunur ki, seçkilərin vaxtının dəyişdirilməsi müxalifətin seytnot vəziyyətinə düşməsinə səbəb olub. Bu kimi arqumenlərə cavabınız nədir?***

- Müxalifətin bir hissəsi namizədini müəyyənləşdirib, mən mətbuatdan oxumuşam. Məsələn, Müsavat Partiyası hələ 3 il bundan qabaq qurultayda namizədini müəyyənləşdirib. Digər partiya rəhbərləri elan edib ki, biz namizəd kimi iştirak edəcəyik. Namizəd müəyyənləşdirilibsə, qalır digər məsələlər-işin təşkili. Əgər bu, ciddi partiyadırsa, o işi təşkil etmək o qədər də böyük problem deyil.

***- Belə fikirlər var ki, seçkilərin önə çəkilməsi qərarı xarici ölkələrin prezident seçkilərinə hansısa sürprizlər hazırlanmasını əngəlləmək üçün də verilə bilər. Bu arqumentin əsası varmı?***

- Qəti şəkildə. Azərbaycanda xalqla iqtidar birliyi var. Azərbaycan xalqı prezidentin həyata keçirdiyi siyasəti görür və dəstək verir. Dediyim kimi, lap günü bu gün seçki keçirsək, bizim namizəd ən yüksək səs toplayıb, yenidən ölkə rəhbəri seçiləcək. O baxımdan bizim belə bir problemimiz yoxdur.

***- Yəni hakim partiyanın namizədinin dəyişməsi müzakirə mövzusu deyil?***

- Bəli. Biz namizədimizi elan etmişik, yaxın günlərdə də rəsmi qaydada namizədimizi irəli sürəcəyik.

***- YAP-ın qurultayı nə vaxt keçiriləcək?***

- Yaxın günlərdə olacaq.

***- Siyavuş bəy, parlamentin iclasında siz amnistiya təklifi ilə çıxış etdiniz. Necə bilirsiniz, təklifiniz nəzərə alınsa, amnistiya seçkilərdən əvvəl verilə bilər, yoxsa sonra?***

- Mən təxminən may ayını nəzərdə tutmuşam. Bilirsiniz ki, bu il "Cümhuriyyət İli" elan olunub, Cümhuriyyətimizin 100 ili tamam olur. Həm Ümummilli liderin 95 illiyi tamam olacaq. Bu baxımdan bu məsələni qaldırmışıq və xahiş etmişik ki, cənab Prezidentin təşəbbüsü ilə olsun. Mən orda da qeyd etdim ki, bağışlamaq Allaha və cənab Prezidentə məxsusdur. O baxımdan bu iki böyük bayramda, həm dövlətçiliyə xidmət edən bayramda, həm cəmiyyətimiz üçün vacib olan, dövlətçilik ənənələrini möhkəmləndirən proseslərdə bir belə hadisənin olması çox gözəl olardı. İnsanlar da gözləyirlər. Hər kəsin ümidi var. Törətdiyi əməllərdən peşman olan insanlar amnistiyanı ümidlə gözləyirlər. Söhbət burada hüquqdan getmir. Təbii ki, maddələr düşür. Ancaq maddələrlə yanaşı, hansısa məsələlərlə bağlı olan fərdlərə də tətbiq olunması vacibdir. Mən hüquqşünasam, amnistiyanın da, əfvin də nə olduğunu çox gözəl bilirəm. Amnistiyada bunun hər ikisini tətbiq etmək mümkündür.

***- Sizin təklifiniz İlqar Məmmədov və digərlərinin azadlığa buraxılmasına gətirib çıxaracaqmı?***

- Mən orda da dedim ki, bəzi insanlardan istifadə edib ölkə haqqında mənfi imic formalaşdırmağa çalışırlar. Çalışırlar ki, o adamları qabarıq şəkildə versinlər. Keçən seçkilərdə deyirdilər ki, İlqar Məmmədov ona görə tutulub ki, o, prezidentliyə ən real namizəddir. İlqar Məmmədov bir bələdiyyəyə seçilə bilməz, qaldı ki, prezident. Yəni istifadə edirlər. Bu bəhanələrin qarşısını almaq üçün təklif etdim ki, amnistiya hamıya tətbiq olunsun!

***- Bu il həm də mərhum prezident Əbülfəz Elçibəyin 80 illik yubileyidir. Hakimiyyətin bu barədə addımları olacaqmı?***

- Elçibəyin siyasi partiyası, tərəfdarları var. Bir çoxları özlərini onun yolunun davamçıları elan edirlər. Onun varisi olmaqdan ötrü sinə cıranlar çoxdur, düşüblər ortaya. Amma dövlət tərəfindən müvafiq addımlar atılıb. Yəni eks-prezident statusu verilib, digər təminatlar həyata keçirilib və s.

***- Onun adının əbədiləşdirilməsi ilə bağlı qərar verilə bilərmi?***

- Təkliflər verilməlidir. Bundan sonra dövlət tərəfindən baxılacaq, müvafiq hesab olunsa, qərar qəbul olunacaq.

***- Artıq bir neçə nəfərin namizəd olacağı bəllidir. Hakimiyyət özünə ən ciddi rəqib kimi görür?***

- Kim gəlir-gəlsin, bizim üçün rəqib yoxdur.

***İsveçrənin dağ-kurort şəhəri olan Davosda növbəti Dünya İqtisadi Forumu keçirilib. Tədbirdə çoxlu sayda siyasi lider, mütəxəssis, ekspert və ictimai xadimlər iştirak ediblər. Foruma 70-dən artıq ölkənin dövlət və hökumət başçısı qatılıb. Bütövlükdə 100-dən çox ölkədən 3 minə yaxın nümayəndə iştirak edib. Prezident İlham Əliyev də tədbirdə iştirak edib. Dövlət başçısı 30-a yaxın görüş keçirib, Azərbaycan üçün əhəmiyyətli olan məsələləri müzakirə edib. Forumda əhəmiyyət daşıyan məqamlar sırasında ənənəvi inklüziv indeksin müəyyənləşməsində Azərbaycanın əldə etdiyi nəticə də olub. Ölkəmiz həmin indeks üzrə inkişaf edən ölkələr arasında 3-cü yeri tutub. Onu xatırladaq ki, inklüziv indeks ümumi daxili məhsulun alternativi kimi işlənib hazırlanır. Mütəxəssislərin rəyinə görə, o, insanların öz ölkələrində iqtisadi tərəqqini qiymətləndirdikləri meyarları daha dəqiq əks etdirir. Bu ilki hesabatda Azərbaycan 7 mümkün baldan 4,69-nu toplayaraq, Litva və Macarıstandan sonra 3-cü yeri tutub. Forumda dövlət başçısı çıxış edərək geosiyasi aspektdə çox maraqlı məqamlara toxunub. Azərbaycanın əldə etdiyi uğurların fonunda Prezident İlham Əliyevin irəli sürdüyü fikirlərin geniş təhlilinə ciddi ehtiyac var.***

# Davos Forumu: Azərbaycan reallıqlarının etirafı




## Qonşuluq siyasəti: Azərbaycan dünyaya nümunə göstərir

Ənənəvi Davos İqtisadi Forumu həmişə mütəxəssislərin böyük marağına səbəb olur. Bu tədbirdə dünya iqtisadiyyatı və siyasəti üçün aktual olan məsələlərin yüksək səviyyədə müzakirə edildiyi bir qayda olaraq qəbul edilib. Hətta Davosda ekspertlər dünya geosiyasəti üçün əhəmiyyəti olan proqnozlar da verirlər. 2017-ci il üçün verilmiş proqnozların böyük əksəriyyəti özünü doğrultdu. Burada söhbət qlobal miqyasda özünü göstərə biləcək risklərdən gedirdi.

2018-ci il yanvarın 23-də işə başlayan Forumda da dünya üçün kifayət qədər əhəmiyyətli məsələlər müzakirəyə çıxarılmışdı. Azərbaycan Prezidenti "Strateji baxış: Avrasiya" mövzusunda interaktiv iclasda iştirak edib. Aydındır ki, bu iclas bütövlükdə Avrasiya üçün çox aktual olan problemə həsr edilib. Çünki hazırda bütövlükdə planet üçün əhəmiyyəti olan proseslər məhz Avrasiyada cərəyan edir. Burada ziddiyyətlər, risklər və təhdidlərlə yanaşı, əməkdaşlığın perspektivləri də liderləri maraqlandırır.

Bu baxımdan tədbirin aparıcısının Azərbaycan Prezidentinə "bu il üçün Avrasiya ilə bağlı baxışınız nədən ibarətdir və Azərbaycan olduqca gərgin və hətta təhlükəli regionda necə davranacaqdır" sualı ilə müraciət etməsi təsadüfi deyildi (bax: Prezident İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Strateji baxış: Avrasiya" mövzusunda interaktiv iclasda iştirak edib (AZƏRTAC, 23 yanvar 2018).

Dövlət başçısı İlham Əliyevin bu suala cavabı nəzəri-konseptual və praktiki aspektdə müasir dövrdə qonşuluq siyasətinin ən gözəl nümunəsi sayıla bilər. İlham Əliyev ifadə edib: "Sözsüz ki, qonşuluq problem də ola bilər, üstünlük də. Bu, sizin siyasətinizdən və qonşularla əlaqələrdən asılıdır. Məncə, hər bir ölkə üçün qonşularla münasibətlər prioritet olmalıdır, xüsusilə də bizim regionda" (bax: əvvəlki mənbəyə).

Burada müasir qloballaşma şəraitində suveren ölkələrin bir-birinə münasibətlərinin mühüm bir prinsipi ifadə edilib. Azərbaycanın dövlət başçısı dünya dövlətləri arasında qarşılıqlı əlaqələrin yüksək səviyyədə olduğu bir mərhələdə belə, xarici siyasətin pozitiv məzmun kəsb etməsi zərurətini bir daha xatırladır. Yəni qloballaşma özlüyündə hər şeyi yoluna qoymur, gərək dövlət başçısının əməkdaşlığa yönəlik siyasi iradəsi olsun. Buna görə də qonşuluq problem də ola bilər, üstünlük də. Məsələn, Ermənistan üçün qonşuluq problemdir, Azərbaycan üçün üstünlük. Ermənistan qonşu ölkələrə ərazi iddiasında olur, onlara qarşı təcavüzkar davranır, bu səbəbdən onun üçün Avrasiya ziddiyyətlər məkanıdır. Erməni dövləti İrandan başqa bütün qonşularına qarşı iddialarla çıxış edir - Azərbaycana, Türkiyəyə və Gürcüstana onun əsassız iddiaları barədə KİV geniş informasiyalar yayıb.

Azərbaycan üçün isə situasiya tamamilə fərqlidir. Bakı üçün qonşularla münasibət prioritetdir ki, təcavüzkar istisna olmaqla onların hər biri ilə bütün sahələrdə əməkdaşlıq uğurla davam edir. Rusiya, Türkiyə, Gürcüstan, İran, Türkmənistan, Qazaxıstanla Azərbaycanın strateji xarakterli əlaqələri hamıya məlumdur. Azərbaycan yaxın qonşularla yanaşı, Avrasiya məkanı ölkələri ilə də sıx əməkdaşlıq strategiyasına sadiqdir. O cümlədən "Yeni İpək Yolu" layihəsi çərçivəsində Azərbaycanın fəallığı inkaredilməzdir. Bunu konkret layihələrdə də görmək olar. TAP, TANAP, "Cənub Qaz Dəhlizi", Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars və başqa beynəlxalq layihələr Azərbaycan rəhbərliyinin qonşuluq və Avrasiya səviyyəsində yeritdiyi siyasətin bariz nümunələridir.

## Qarşılıqlı etimad: regional əməkdaşlıqdan qlobal inteqrasiyaya

Azərbaycan rəhbərliyi regional əməkdaşlığı yeni keyfiyyət səviyyəsinə yüksəltmək üçün yeni əməkdaşlıq formatları da təklif edib. Üçtərəfli əməkdaşlıq formatları artıq özünün müsbət nəticələrini verməkdədir. Sözsüz ki, Azərbaycan bu istiqamətdə fəaliyyətini davam etdirəcəkdir.

Dövlət başçısının vurğuladığı məqamlar çox əhəmiyyətli başqa bir məqama da işarə verir. Məsələ ondan ibarətdir ki, Azərbaycana yaxın və uzaq qonşuların münasibətlərinin necə olması da ciddi əhəmiyyət kəsb edir. Bunun fəlsəfəsinin başlıca prinsipini də Prezident İlham Əliyev Davosda ifadə edib. Ölkə rəhbəri fikrini inkişaf etdirərək vurğulayıb: "Azərbaycanda daxili risk və ya təhdidlər mövcud deyil və biz sərhədlərimiz boyu təhlükəsizliyimizi təmin etməliyik. Bunun ən yaxşı yolu isə öz ölkənin milli maraqlarına əsaslanaraq, eyni zamanda, qonşu dövlətlərin maraqlarını anlamaqla olduqca praqmatik və səmimi münasibətlərin qurulmasıdır" (bax: əvvəlki mənbəyə).

Bəli, məsələnin bu tərəfi Davosda aparıcının verdiyi sual kontekstində də çox vacib məqama bağlıdır. Çünki məsələ yalnız Azərbaycanın mürəkkəb və ziddiyyətli regionda həyata keçirdiyi siyasətlə tamamlanmır. Azərbaycana yönəlik güdülən siyasi məqsədlər də əhəmiyyət kəsb edir. Ona görə ki, Azərbaycanın təhlükəsizliyi təmin edilməli, onun ərazi bütövlüyü qorunmalı və suverenliyinə hörmət edilməlidir. Bütün bunlara daxildə heç bir təhlükə yoxdur. Səbəbi ondan ibarətdir ki, Azərbaycanın daxili siyasəti tam demokratik məzmun kəsb edir.

Ölkədə hər bir vətəndaşın hüquq və azadlıqları təmin olunub. İlham Əliyev qətiyyətlə bu bağlılıqda bəyan edib ki, "Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən mətbuat azadlığı təmin edilir" (bax: əvvəlki mənbəyə). Aparılan daxili siyasət heç bir etnik və dini mənsubluğa fərq qoymadan bütün ölkə cəmiyyəti üzvlərinə eyni dərəcədə aiddir. Azərbaycan regionda yeganə dövlətdir ki, multikulturalizm dövlət siyasətinin tərkib hissəsidir.

Lakin təcrübə göstərir ki, bəzi yaxın və uzaq qonşular bu reallığı düzgün qiymətləndirmir və Azərbaycana xaricdən neqativ təsirlər göstərməyə çalışaraq daxili sabitliyi pozmağa cəhd edirlər. Azərbaycanı əsassız və süni olaraq ittiham etməyə çalışır, onun antidemokratik ölkə obrazını yaratmağa cəhd göstərir, müxtəlif böhtan kampaniyaları təşkil edirlər. Azərbaycanda siyasi məhbus və insan haqlarının pozulması hallarının axtarışında olanlar da vardır. Təəssüf ki, beləələri Azərbaycanın Avropadakı tərəfdaşları sırasında da var.

Ancaq Bakı bütün bu qərəzlərə sivil, demokratik və milli maraqlara dayanan mövqeyi ilə qarşılıq verir. Prezident İlham Əliyev Davosda məsələnin bu aspektini ayrıca vurğulayıb. Bununla aydın olur ki, Azərbaycan haqqında ağlasığmayan, iftira dolu, yalan məlumatlar yayanlar əsas olaraq xaricdədirlər. Məhz onlar, ilk növbədə, özlərinin "qonşuluq" anlayışına yenidən baxmalı və ədalətli mövqe tutmalıdırlar.

Əslində, Azərbaycanın əldə etdiyi uğurları Davosda mütəxəssislər etiraf edirlər. Ölkəmiz rəqabətə davamlılıq üzrə MDB ölkələri arasında liderdir. Builki Forumda isə Azərbaycan inkişaf etməkdə olan ölkələr sırasında 3-cü yerə layiq görülüb. Prezident İlham Əliyevin də vurğuladığı kimi, iqtisadiyyatın şaxələndirilməsi uğurla davam edir. Azərbaycanda artıq milli gəlirin 70%-i qeyri-neft sektorunun payına düşür. Bu o deməkdir ki, ölkə xammala deyil, yüksək texnologiyaya, elmə, biliyə, postsənaye mərhələsinin aparıcı faktorlarına əsaslanan inkişaf xəttinə çıxıb. Bu da böyük perspektivlər vəd edir.

Beləliklə, Davos Forumu bir daha Azərbaycanın regionda getdikcə artmaqda olan nüfuzunun real sosial-iqtisadi, siyasi, mədəni, energetik parametrlərə dayandığını nümayiş etdirdi. Ölkəmizə qarşı nə qədər qərəzli olsalar da, faktlar qarşısında geri çəkilməyə məcburdurlar. Belə ki, Azərbaycan hər il əldə etdiyi nailiyyətlərlə dünyanın sivil, demokratik, dinamik inkişaf edən ölkələri sırasında yer aldığını konkret faktlar əsasında dünyaya sübut edir. Davos Forumu da bu bağlılıqda istisna deyil.

***Newtimes.az***

# Dövlətimizin ailə, qadın və uşaq siyasəti uğurlu nəticələr verir

*Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın yap.org.az-a müsahibəsi*

***- Hicran xanım, hazırda Azərbaycan cəmiyyətində son 14 ildə ölkəmizin qazandığı nailiyyətlər geniş müzakirə olunur. Sizcə, bu dövrdə əldə olunan nailiyyətlərin əsasında hansı amillər dayanır?***

- Müasir demokratik Azərbaycan dövlətinin yaradıcısı Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş prinsiplərə sadiq qalaraq bu gün hörmətli cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikada nəhəng quruculuq işləri aparılır. Ümumiyyətlə, bir neçə ildir ki, biz dünyada siyasi, iqtisadi və hərbi böhranlı vəziyyəti müşahidə edirik. Dünyada baş verən kataklizmlər fonunda, ölkəmiz stabillik adasıdır. Və əlbəttə ki, inkişafın əsasında sabitlik, təhlükəsizlik dayanır. Vahid dövlətçilik siyasəti nəticəsində Azərbaycan iqtisadi, siyasi, mədəni, sosial, hərbi, idman sahələrdə davamlı və dinamik sürətlə inkişaf edir. İnfrastrukturun, o cümlədən, sosial infrasturkturun yaradılması, yeni müəssisələrin, texno və sənaye parklarının açılması ümumi iqtisadi inkişafla yanaşı, regionların, ən ucqar kəndlərin inkişafına təkan verir, insanların rifahını yaxşılaşdırır. Xüsusi ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurla həyata keçirilməsi öz müsbət nəticələrini verməkdədir. 14 il əvvəl (2004-cü ilin əvvəllərində) qəbul edilmiş birinci proqram demək olar ki, Azərbaycan regionlarında dönüş yaratdı. Keçən müddət ərzində ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu artmış, aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir.

Biz gələcəyə inamımız çox böyükdür, çünki buna güclü əsasımız var. Yaxın tarixə nəzər salsaq, nə görürük? Dağıdılmış, bütün əlaqələri kəsilmiş bir ölkə. Tarixi missiyanı öz üzərinə götürərək Ümummilli Lider Heydər Əliyev Azərbaycanı bütün çətin sınaqlardan şərəflə çıxarmışdır. Təməli o illərdə qoyulmuş siyasət Cənab Prezidentmiz İlham Əliyev tərəfindən daha da gücləndirilmişdir. Ölkəmiz dünya miqyasında iqtisadi cəhətdən ən rəqabətqabiliyyətli ölkələr sırasında 35-ci yerdədir. "Əsrin kontraktı"nın daha da səmərəli şərtlərlə 2050-ci ilə qədər uzadılması, eləcə də, enerji, neft-qaz sahəsində nəhəng, iri miqyaslı layihələrin reallaşması ölkəmizin strateji əhəmiyyətini daha da artırmışdır. Azərbaycan nəinki öz xalqı, h



Əgər 2004-cü ilə qədər Azərbaycanda bütün dövrlər ərzində 9 elektrik stansiyası tikilmişdirsə, son 14 il ərzində ölkəmizdə 30 elektrik stansiyası tikilmişdir. 2004-cü ildə Azərbaycanda qazlaşdırmanın səviyyəsi 51 faiz idi, hazırda isə ölkədə qazlaşdırma 93 faizə çatıb. Bütün şəhərlərimiz qazla 100 faiz təmin edilib. 2004-cü ildə ölkə üzrə fasiləsiz içməli su ilə təminat 26 faiz idi, hazırda bu, 67 faizə çatıb, Bakı şəhərində 81, bölgələrdə isə 43 faizdir. Demək olar ki, bir çox şəhərlərimizdə içməli su və kanalizasiya layihələri uğurla başa çatıb. Oğuz-Qəbələ-Bakı nəhəng su kəməri, Ceyranbatanda dünyanın ən böyük sutəmizləyici qurğusu tikilibdir. Bu gün bu qurğudan çıxan sular keyfiyyətinə görə Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verir. İqtisadiyyat 14 il ərzində 3,2 dəfə artmışdır. Qeyri-neft iqtisadiyyatımız isə 2,8 dəfə artmışdır. Bu, onu göstərir ki, bizim iqtisadi inkişafımız, sadəcə olaraq, neftin, qazın istehsalı ilə bağlı deyil. Bizim iqtisadi inkişafımız çoxşaxəlidir. Ona görə qeyri-neft sektorunun 2,8 dəfə artması aparılan islahatların nəticəsidir. Sənaye sahəsində 2,6 dəfə, kənd təsərrüfatında isə 1,7 dəfə artım var. Qeyri-neft ixracımız 4,1 dəfə artmışdır. Sosial infrastruktuun inkişafı sahəsində böyük işlər görülüb. 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş, yaxud təmir edilmişdir, 43 Olimpiya İdman Kompleksi inşa olunmuşdur. Bu gün Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Əsas iqtisadi göstəricilərimizin artması, eyni zamanda, əmək haqlarının, pensiya və sosial müavinətlərin yüksəlməsinə səbəb olmuşdur. Maaşlar beş dəfədən çox, pensiyalar səkkiz dəfədən çox artıb və bir çox önəmli sosial layihələr icra edilib. Məktəblərə qeydiyyat dərəcəsi ibtidai, ümumi və tam orta təhsil səviyyələrində 99,8-100 faizə çatdırılmış, gender bərabərliyinin təşviqi və qadınların səlahiyyətlərinin artırılmasında tərəqqiyə nail olunmuş, uşaq və ana ölümü əhəmiyyətli dərəcədə azalmış, yoluxucu və digər xəstəliklərə qarşı mübarizə gücləndirilmiş, ətraf mühitin mühafizəsi və qorunması üçün qlobal tərəfdaşlığın təmin edilməsində mühüm irəliləyişlər əldə olunmuşdur. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə vətəndaşlarımız , xüsusən də qadın və uşaqlar üçün uyğun şəraitin yaradılması, məşğulluq, sağlamlıq, təhsil və sosial siyasət sahəsində gender bərabərliyinin inkişaf etdirilməsi üçün mühüm işlər görülmüşdür. Həssas sosial təbəqələrin, o cümlədən, kəndli qadınların, qaçqın və məcburi köçkün, həmçinin aztəminatlı və çoxuşaqlı ailələrin vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün dövlətimiz tərəfindən bütün qüvvələr səfərbər etmişdir. Cənab Prezident İlham Əliyev və respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın konkret tapşırıqları əsasında onlar üçün yaşayış binalarının, eyni zamanda, cəbhə bölgələrində ziyan dəymiş evlərin, sosial obyektlərin tikinti, bərpa və təmir işləri aparılır. Bu günə qədər 265 min köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Hərbi sənayenin inkişafı, ordumuzun gündən-günə güclənməsi, erməni işğalçılarından azad edilmiş Cocuq Mərcanlının yenidən qurulması insanlarda torpaqlarımızın azad edilməsi inamını daha da artırır. Xüsusi ilə, bu qəsəbənin sakinlərinin ictimai-siyasi həyata inteqrasiya edilməsi istiqamətində keçirilən tədbirlər, təşkil olunan görüşlər əhalidə böyük ruh yüksəkliyi yaradır.

Son illər ərzində ictimai xidmətlər sahəsində inqilabi dönüş baş vermişdir. "ASAN xidmət" mərkəzlərinin yaradılması bu sahədə həyata keçirilən ən nümunəvi layihədir. Son beş il ərzində bu mərkəzlərdə 20 milyona yaxın müraciət qəbul edilmişdir və "ASAN xidmət" mərkəzlərini bəyənmə əmsalı 100 faizə yaxındır. Rüşvətxorluğa, korrupsiyaya, bürokratiyaya qarşı çox ciddi mübarizə aparılır. Həyata keçirilən dövlət siyasətinin əsasında vətədaş dayanır, cənab Prezidentin dediyi kimi, "heç bir vətəndaş diqqətdən, qayğıdan kənarda qalmamalıdır, hər kəsin hüquqları qorunmalıdır". Bu sahədə aparılan dövlət siyasətini insanlar da müsbət qarşılayırlar. Məmur vətəndaş münasibətlərində şəffaflığın təmin edilməsi, bu siyasətin ən bariz nümunəsidir. Hər bir vətəndaş öz problemi ilə istənilən quruma çox asanlıqla müraciət edə bilər. Əlbəttə, bütün problemləri həll etmək mümkün olmur, amma bu insanları dinləmək, onları düzgün istiqamətləndirmək, hüquqi və sosial-psixoloji yardım göstərmək vəzifəmizdir. Eyni zamanda, dövlət qurumlarının nəzdində İctimai Şura yaradılmışdır. Qeyd edim ki, İctimai Şura dövlət qurumlarının transparent fəaliyyətinə müsbət təsir göstərir.

Bütün bunlar onu göstərir ki, müasir inkişaf dövrünü yaşayan Azərbaycanın imkanları artır və bu, dövlətimizin dünyada nüfuzunun ildən-ilə yüksəlməsinə səbəb olur. Bu gün artıq Azərbaycan özünü dünya miqyasında müstəqil siyasət aparan ölkə kimi təqdim edir. Bunun təməlində Cənab Prezidentin və Respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Ümummilli Lider Heydər Əliyevin ideyalarına, irsinə olan sadiqlik, güclü siyasi iradə, gərgin əmək, yüksək şəxsi keyfiyyətlər, xalqla sıx təmas dayanır.

***- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 12 ildir ki, fəaliyyət göstərir. Komitə ölkəmizdə ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində nə kimi addımlar atır?***

- Keçən müddət ərzində ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqların müdafiəsi istiqamətində bir sıra mühüm qanunlar qəbul edilmiş və bu sahədə davamlı islahatlar aparılmışdır. Həmin qanunların qəbul edilməsi yeni düşüncə tərzinin formalaşmasına və müəyyən stereotiplərin aradan qaldırılmasına təkan vermişdir. Qeyd edim ki, ölkə başçısının Sərəncamları ilə təsdiq edilən Gələcəyə Baxış İnkişaf Konsepsiyası və 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədlərindən, eləcə də Strateji Yol Xəritəsindən irəli gələrək, ailə institutunun möhkəmləndirilməsi, gender bərabərliyinin təmin edilməsi, bütün sahələrdə qadınların və qızların, uşaqların bütün sahələrdə hüquqlarının müdafiəsi üçün geniş imkanlar yaranmışdır.

Son illər ailə institutu və bu dəyərlərin qorunması ilə bağlı keçirilən beynəlxalq konfranslar bu məsələlərin dünya ölkələri üçün nə qədər aktual olduğunu bir daha göstərdi. Ancaq əfsuslar olsun ki, hazırda dünyada ekstremizm, zorakılıq, terrorçuluq, qarşıdurmalar və hərbi münaqişələrin sayı artmaqdadır. Bu hadisələr ilk növbədə ailə institutuna mənfi təsir göstərir, ailələr dağılır, milli-mənəvi dəyərlər deqredasiyaya uğrayır. Lakin bütün bunların fonunda Azərbaycanda ailə institutu qorunub saxlanılır, insanlar təhlükəsizlik, dostluq, mehribançılıq, tolerantlıq şəraitində yaşayırlar. Artıq dünyanın bütün ölkə və xalqları Azərbaycanın ailə və mədəni tolerantlıq modelini qəbul edir. Hazırda iki miyon səksən dörd mindən çox ailə var. Yüzlərlə ömrünün 50, 60 və daha çox müddətini bir yerdə yaşayan uzunömürlü ailələrimiz var. Bütövlükdə ailələrin sosial rifahını yüksəltmək, xüsusilə qadın və uşaqların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün Hökumət mütəmadi zəruri tədbirlər həyata keçirir. 2006-cı ildən başlayaraq "Qadın əleyhinə zorakılığın dayandırılması!", "Ailədaxili münasibətlərdə milli mənəvi dəyərlər və bu münasibətlərin gələcək nəslin (uşaqların) formalaşmasında əhəmiyyəti", "Nəsillərarası əlaqələr - ailədə milli dəyərlər" , "Müasirləşmənin ailəyə təsiri və rolu", "Ailə - dəyərlərimiz, ənənələrimiz", "Sağlam ailə sağlam gələcəyin təminatıdır", "Müasir ailənin cəmiyyətin inkişafında yeri və rolu", "Yaşlı nəslin təcrübəsindən faydalanaq", "Ailə, məktəb və cəmiyyət" , "Sağlam həyat naminə erkən nikaha yox deyək", "Bizim gücümüz birliyimizdədir", "Ailə Akademiyası" adlı layihələr reallaşdırılmışdır. Ənənəvi olaraq 9 ildir ki, "Ailə bayramı" keçirilir və hər il bu bayramda bütün Azərbaycanın rayonlarını təmsil edən, 100-ə yaxın ailə iştirak edir. Eyni zamanda, "Azərbaycan ailəsi" adlı filmlər festivalı uğurla davam etdirilmişdir. 39-u xarici rejissorlar tərəfindən olmaqla, təşkilat komitəsinə 285 film təqdim edilmişdir. Bu lyihələrdə əsas məqsəd ailə, milli-mənəvi dəyərlərin təbliğidir. Əgər 2006-cı ildə 9 tədbir keçirilmişdirsə, 2017-ci il də bu tədbirlərin sayı artaraq 30 olub. Bu tədbirlərdən 3mindən çox şagird, 10 mindən çox qadın və kişi, 2mindən çox ağsaqqal və ağbirçək, 2200-dən çox əsgər və zabit həyəti, 1875 ailə faydalanmışdır. Ümumuiyyətlə, hər sahə üzrə keçirilən tədbirlərin sayı 2006-ci ilə nisbətdə 10 dəfə artmışdır. 2009-cu ildən başlayaraq, Komitənin Uşaq və Ailələrə Dəstək Mərkəzləri icmada risk qrupuna aid olan ailə, qadın və uşaqlara dəstək göstərir, vətəndaşların müraciəti əsasında onları müxtəlif xidmətlərə yönəldirlər. 2009-cu ildən 2017-ci ildə daxil olmaqla Mərkəzlərin fəaliyyətindən 87 965 vətəndaş bəhrələnmişdir. Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən mütəmadi olaraq, qadınlar və uşaqlar üçün ayrı-ayrı rayonlarda, məktəblərdə, ictimaiyyət arasında müvafiq mövzularda dəyirmi masalar, seminartreninqlər, peşə kursları təşkil edilir. Bunun müsbət nəticələri ailələrin sayı artması, qanunvericilikdə dəyişikliklərin edilməsi, erkən nikahların, ana ölümünün, məişət zorakılığı faktlarının sayının azalmasına nail olunub. Ailələrin sayı 2006-cı ildə 1 817 500 idisə,

# Dövlətimizin ailə, qadın və uşaq siyasəti uğurlu nəticələr verir

*Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın yap.org.az-a müsahibəsi*

2017-ci ilin əvvəlinə 2084 500 olub. 2003-cü ildə hər 100 000 nəfər diri doğulana ana ölümü 34,2 promil təşkil edirdisə, 2016-cı ildə 13,8 promil təşkil etmişdir. Əhalinnin hər 1000 nəfər diri doğulana körpə ölümü 2003-cü ildə 15,5, 2016-cı ildə isə 11,4 promil olub. Ailə Məcəlləsinə edilən dəyişiklik əsasında qızlar və oğlanlar üçün nikah yaşı 18-ə qaldırılmışdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsində yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə xüsusi maddə ilə məsuliyyət müəyyən edilmişdir. “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə”, “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına” və bir sira digər Dövlət Proqramları təsdiq edilmiş, eyni zamanda, tərəflərin nikahdan əvvəl məcburi tibbi müayinədən keçməsi ilə bağlı Ailə Məcəlləsinə edilən dəyişiklik isə həm ailələrimizin, həm də gələcək nəsillərin sağlamlığına xidmət edir. Uşaqların təhsildən yayınması, əməyə cəlb edilməsi və onların məruz qaldığı digər sosial-psixoloji problemlər valideyn məsuliyyətinin artırılmasını zəruri edir. Bütün bu və digər məsələlər nəzərə alınaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanunları qəbul edilmişdir.

***- Bu gün dünya ölkələrinin qarşısında dayanan əsas məqsədlərdən biri cəmiyyətin inkişafında qadınların daha səmərəli fəaliyyəti üçün imkanların yaradılmasıdır. Bu barədə nə deyə bilərsiniz?***

- Qeyd edim ki, ölkəmizdə hər zaman qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etmişlər. Bu il bizim üçün çox əlamətdardır. Tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının və ilk dəfə olaraq müsəlman Şərqində qadına seçmək və seçilmək hüququnun verilməsinin 100 illiyi qeyd edilir. müsəlman Şərqində qadına seçmək və seçilmək hüququnun verən ilk ölkədir. 100 il əvvəl nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrində və ABŞ-da qadınların belə bir hüququ yox idi. Bütün müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb 117 il bundan qabaq Bakıda yaradılmışdır. Azərbaycan qadını öz fəaliyyətini maarifçilik və xeyriyyəçilik ideyalarının yayılmasından başlayaraq, mədəni, dini, milli- mənəvi dəyər və ənənələri də nəzərə almaqla davam etdirir. Bu qadınlar bütün tarixi dövrlərdə fəal iştirak edərək, cəmiyyətimizin inkişaf etməsinə öz töhfələrini vermişlər. Onların arasında görkəmli dövlət, elm, mədəniyyət və ictimai-siyasi xadimləri vardır. Qadınların cəmiyyətdəki yeri və rolunun mühüm göstəricisi onların müxtəlif dövlət vəzifələrini tutmaları və ümumiyyətlə, aktiv əmək fəaliyyəti ilə məşğul olmalarıdır.

Müstəqillik əldə etdikdən sonra qadın hərəkatının yeni mərhələsi başlandı.Azərbaycan Respublikası Prezidentinin “Azərbaycanda qadınların rolunun artırılması”, “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Sərəncamları qadınların istənilən sahədə fəaliyyət göstərməsi üçün münbit şərait yaratdı. Qadınların ictimai - siyasi fəaliyyətinin artırılmasında bu sənədlərin əhəmiyyəti çox böyükdür. Azərbaycan Respublikası Qadınları təşkilatlanaraq problemləri müzakirə edir, bu istiqamətdə gələcəkdə görüləcək məsələləri dövlət və cəmiyyət qarşısında qaldırır. Bu baxımdan, 1998, 2003, 2008 və 2013-cü -cü illərdə keçirilmiş Azərbaycan Qadınlarının Qurultayları ölkədə qadın hərəkatının fəallaşmasının təsdiqidir. Gender bərabərliyi və qadın hüquqlarının təbliği, o cümlədən erkən nikahların qarşısının alınması ilə bağlı Respublikanın bir sıra rayonlarına səfərlər təşkil olunub. Əhalinin maarifləndirilməsi məqsədilə seminarlar təşkil edilmişdir. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” (2006- cı il), “Məişət zorakılığının qarşısının alınması haqqında” (2010-cu il) Azərbaycan Respublikası Qanunları qəbul olunmuşdu. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın məhz bu Qanunun qəbul edilməsində xüsusi təşəbbüsü və rolu olmuşdur. Qeyd etmək lazımdır ki, respublikanın birinci vitse-prezidenti Mehriban xanım Heydər Əliyev Fondunun prezidenti kimi, təhsil, səhiyyə, mədəniyyət, eləcə də sosial, ekologiya, idman və digər istiqamətləri əhatə edən xeyli sayda əhəmiyyətli layihələr həyata keçirirdi. Və onun yeni fəaliyyət istiqaməti bu sahədə aparılan işləri daha da gücləndirir. Bu özünü reallaşan mühüm sosial layihələrdə əks etdirir. Mehriban xanım həm ictimai fəaliyyəti, həm də elmi yaradıcılığı ilə yalnız, Azərbaycan qadınlarına deyil, dünya qadınlarına bir nümunədir. Layiq gördüyü bir sıra nüfuzlu mükafat və təltiflər fikirlərimizin bariz göstəricisidir. Bu günlərdə Rusiyanın “LİVEJORUNAL”nəşrində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı Cənubi Qafqazın ən nüfuzlu xanımı kimi səciyyələndirib. Bu isə bütövlükdə qadınlarımızın ictimai-siyasi prosesdə daha da aktiv iştirak etmələrinə stimul yaradır.

***- Ölkəmizdə qadınların ictimai-siyasi fəallığının daha da artırılması, onların iqtisadi sferada iştirakçılığının genişləndirilməsi yönündə nə kimi tədbirlər görülür?***

- Sahibkarlığın, xüsusi ilə, qadın sahibkarlığının inkişafı yoxsulluğun azaldılmasına, qadınların iqtisadi və sosial nüfuzunun artmasına və bir çox hallarda, cəmiyyətdə gender bərabərsizliyinin aradan qaldırılmasına yardım edir. Bildiyiniz kimi, BMT-nin Avropa İqtisadi Komissiyası və Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatı üzrə Xüsusi Proqramı çərçivəsində bir neçə Konfrans və Forumlar keçirilmişdir. 2012-ci ildən SPEKA - ya sədirlik edən Azərbaycan regionda qeyd olunan məsələləri xüsusi diqqətdə saxlayır, ölkələrin təcrübələri araşdırılır, yeni əməkdaşlıqlar yaranır. Qeyd edim ki, 2016-cı ildə SPEKA çərçivəsində İqtisadi Forumda sosial-iqtisadi sahədə əldə edilən nailiyyətlər, sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin genişləndirilməsi kimi vacib məsələlər müzakirə edilib. Və tədbirin əhəmiyyəti ondan ibarətdir ki, üzv ölkələr sıx əməkdaşlıq edərək davamlı inkişaf məqsədlərinin həyata keçirilməsinin gücləndirilməsi istiqamətində Gəncə Bəyannaməsi qəbul olunub.2017-ci ildə sayca 3-cü olan Qadın sahibkarlığının inkişafı: problemlər və perspektivlər mövzusunda beynəlxalq konfrans keçirilib və Tövsiyələr Qəbul olunub. Qəbul olunmuş bir sıra dövlət proqramları ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunun artırılmasında mühüm xarakter daşıyır. Görülən tədbirlər qərar qəbuletmə səviyyəsində qadınların təmsilçiliyinə öz müsbət təsirini göstərdi. Milli Məclisdə qadınların xüsusi çəkisi 1990-cı ildə 4,3%, 2000-ci ildə 10,7%, 2010-cu ildə 16%, 2015-ci ildə 16,8% olub. Bələdiyyəyə seçilmiş qadınlar isə 2004-cü ildə 4%, 2009-cu ildə 26,5%, 2014-cü ildə isə 35%-ə çatmışdır. Son illər demək olar ki,bütün yerli icra hakimiyyəti başçılarının müavinlərindən biri mütləq qadındır. Ümumiyyətlə, qadın hüquqlarının müdafiəsi ilə bağlı bir sıra layihələri Komitə ilə birgə Heydər Əliyev Fondu, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP), Əhali Fondu (UNFPA), Uşaq Fondu (UNICEF), Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR), Beynəlxalq Miqrasiya Təşkilatı (İOM), Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAID) dəstəyi ilə reallaşır. Azərbaycan Hökuməti gender əsaslı zorakılığın qarşısının alınması sahəsində çox mühüm işlər görür. İlk növbədə qanunun implementasiyası üçün hakimlər, vəkillər üçün təlimlər keçirilib və bu öz müsbət nəticəsini verir. Artıq son iki ildə məhkəmə qərarlarında bu sahədə qəbul olunmuş qanun və qoşulduğumuz konvensiyalara, o cümlədən, “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi” haqqında Konvensiyaya istinad edilir. Yerli icra hakimiyyətlərində fəaliyyət göstərən Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarının iş keyfiyyətinin artırılması üçün seminarlar təşkil olunub, tövsiyələr verilib. Eyni zamanda, gender məsələləri üzrə təyin edilmiş əlaqələndirici şəxslər üçün Azərbaycan Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyasında xüsusi fakultativ dərslər keçirilib. Komitə müvafiq dövlət qurumları ilə birgə “Məişət zorakılığının qarşısının alnması ilə bağlı” 2016-2018-ci ilər üçün tədbirlər planı çərçivəsində müvafiq işlər görüb. Bu ilin oktyabr ayında Məişət zorakılığı ilə bağlı onlayn məlumat bankının təqdimatı keçirildi. “Azərbaycanda gender əsaslı zorakılıqla mübarizə” layihəsi çərçivəsində bir sıra mühüm sənədlərin hazırlanması sahəsində tədbirlər görülüb, müvafiq qurumların məsul şəxsləri ilə səmərəli görüşlər keçirilmişdir. 2017-ci ildə “Məişət zorakılığı ilə mübarizədə effektiv cavab mexanizminin yaradılması” ilə bağlı dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının iştirakı ilə Konfrans təşkil edildi. “Gender Əsaslı Zorakılıqla Mübarizə Sahəsində Qurumlararası Əlaqələndirmə Şurasının Yaradılması” və “Məişət zorakılığının aradan qaldırılması və onunla mübarizəyə dair Milli Fəaliyyət Planı”nın hazırlanması, qanunvericilik bazasının daha da təkmilləşdirilməsi ilə bağlı təkliflər ictimaiyyətə təqdim edilib.

Prezidentimizin uğurlu dövlət idarəçiliyi, Onun başçılığı ilə aparılan sistemli islahatlar, bölgələrin inkişafına yönəldilən sosial-iqtisadi proqramlar qadınların qarşısında böyük imkanlar yaradır. Onların əldə etdikləri uğurlar, bütövlükdə dövlətimizin nailiyyətidir. Xüsusilə bu gün qadınlarımız texniki və maliyyə sahələrinə böyük maraq göstərirlər. Əgər 2005- ci ildə dörd mindən çox (4328) qadın maliyyə və sığorta fəaliyyəti ilə məşğul olurdusa, 2015-ci ildə onların sayı on minə (9899) çatmışdır. Və ya 2005-ci ildə peşə, elmi və texniki fəaliyyəti ilə on dörd mindən çox (14 811) qadın məşğul olurdusa, 2015-ci ildə onların sayı iyirmi beş mini (25 386) ötmüşdür. Tikinti sahəsində fəaliyyət göstərən qadınların sayı 2005-ci ildə beş mindən çox (5 177), 2015-ci ildə isə yeddi mindən çox 7154 olmuşdur. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqla məşğul olan qadınların sayı 2005-ci ildə 8170 idisə, 2016-cı ildə bu rəqəm artaraq 9800 olmuşdur. Cənab Prezidentin rəhbərliyi ilə ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar sahibkarlarımızda, xüsusi ilə də qadın sahibkarllarda böyük ruh yüksəkliyi yaratmışdır. Həyata keçirilən dövlət siyasət nəticəsində azteminatlı,ünvanlı sosial yardım alan, riskli ailələrdən olan qadınların məşğulluğunun artırılması üçün müxtəlif sahələrdə onların biznesə cəlb olunmalarını sürətləndirir. Xüsusilə, kənd və rayonlarda yaşayan xüsusi həssas yanaşma tələb edən qadınların, qaçqın və məcburi köçkün qadınların da sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi də vacib məsələlərdəndir. Qadın sahibkarlığın inkişafı yoxsulluğun azaldılmasına, qadınların iqtisadi və sosial nüfuzunun artmasına və bir çox hallarda, cəmiyyətdə gender bərabərsizliyinin aradan qaldırılmasına yardım edir. İqtisadiyyat Nazirliyi, Azərbaycan Sahibkarlara Kömək Milli Fondu digər dövlət qurumları ilə bərabər, regionlarda qadın sahibkarlarının fəaliyyətinin daha da möhkəmləndirilməsi üzrə iş aparır, onlara kiçik və orta biznesə başlamaları üçün kreditlər verilir. Belə ki, 2002-2016-ci illər ərzində 3787 qadın sahibkara 65.9 milyon manat güzəştli kredit verilmişdir. 2002-2016-ci illər ərzində qadın sahibkarlara verilmiş güzəştli kreditlər hesabına 5671 yeni iş yerləri yaradılmışdır. 2017-ci ilin əvvəlində qadın sahibkarların sayı artaraq 143 090 nəfər təşkil edir. Bu gün aktual məsələlərdən biri də, kənd və rayonlarda yaşayan qadınların iştirakçılığının artırılmasıdır. Azərbaycanda “Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı” texniki yardım layihəsi çərçivəsində 971 qadın təlim keçmiş, 48 qadın isə sahibkarlıq fəaliyyətinə başlamışdır. 2017-ci ildə regionlarda 5 Qadın Resusrs Mərkəzi yaradılıb. Qadınların iqtisadi cəhətdən gücləndirilməsi ailə münasibətlərinə də təsir edir. Ailə büdcəsinə öz tövhəsini verməklə yanaşı, qadının özünə inam hissi artır, ailədə iqtisadi cəhət asılı olmur, eyni zamanda özlərinin iqtisadi və ictimai həyatda bərabər iştirakını təmin etmiş olurlar.

**Ardı Səh. 10**

# Dövlətimizin ailə, qadın və uşaq siyasəti uğurlu nəticələr verir

*Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın yap.org.az-a müsahibəsi*

Əvvəli səh. 9

***- Hicran xanım, Azərbaycanda uşaq hüquqlarının müdafiəsi yönündə hansı tədbirlər həyata keçirilir?***

- Uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan hökuməti tərəfindən mühüm işlər görülmüşdür. Möhtərəm Prezidentimizin və Birinci xanımımızın uşaqlara göstərdikləri qayğı, həmçinin, dövlət orqanlarının və vətəndaş cəmiyyətinin diqqətini daha da artırmışdır. Dövlət uşaq siyasətinin əsasında qaçqın və məcburi köçkün uşaqlar üçün xidmətlərin təminatı, böyüməkdə olan nəslin sağlamlığı, təhsilinin inkişafı, hüquqlarının müdafiəsi, uşaq iştirakçılığı dayanır. Bu istiqamətdə Dövlət Proqramları icra olunur, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə birgə layihələr həyata keçirilir. 2006-ci ildə 10 tədbir keçirilmişdirsə, 2017-ci ildə bu tədbirlərin sayı 40-a çatmışdır. 2009-cu ildə “Uşaq ili”elan olunub. 2009-2017-ci illər ərzində 4 Ümumrespublika Uşaq Forumu keçirilib. Bu ilki Forumda respublikanın bütün bölgələrinin təmsil edən uşaqlarla yanaşı, bir sıra xarici dövlətlərin məsul şəxsləri, gənc nümayəndə heyəti iştirak edirdi. Bu, ildən-ilə tədbirin səviyyəsinin daha da artdığını, beynəlxalq nüfuz qazandığını sübut edir. Ölkə başçısının Forum iştirakçılarına etdiyi müraciət isə ölkədə uşaq siyasətinin həyata keçirilməsində dövlətin və onun başçısının diqqətin və qayğının göstəricisidir. Qeyd edim ki, hər bir Forumda səslənən təkliflərin əksəriyyəti həyata keçirilmişdir. Və bu dövlətimizin hər bir vətəndaşın istər uşaq, istərsə də böyük olsun fikrinə, arzusuna göstərilən diqqətin bariz nümunəsidir. Məlumat üçün qeyd edim ki, 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası” təsdiq edilmişdir. Dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitoringi aparılır. Bütün məlumatlar Komitədə ümumiləşdirilmiş, tövsiyələr hazırlanmış və Nazirlər Kabinetinə çatdırılır. Həmin tövsiyələr əsasında təlim-tərbiyə müəssisələrində şərait standartlara uyğunlaşdırılır, mütəxəssislər üçün yeni təlimlər keçirilir. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı yaradılmış, artıq məlumatlar daxil edilir.

Bildiyiniz kimi, Azərbaycanda idmana dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilir, idman infrastrukturu inkişaf edir. Bakıda və bölgələrimizdə müasir idman qurğuları istifadəyə verilib, eyni zamanda, bizim müasir 43 Olimpiya İdman kompleksi fəaliyyət göstərir və bu, özlüyündə idmana olan marağı artırır. Gənc nəsil, uşaqlar, yeniyetmələr idman bölmələrinə gedirlər və idmanla məşğul olurlar. Bunun nəticəsidir ki, Azərbaycan millisi beynəlxalq idman tədbirlərində böyük uğurlar qazanırlar. Xüsusilə, gənclərimizin vətənpərvər olması üçün bir sıra mühüm tədbirlər görülür. Cənab İlham Əliyevin tapşırığı ilə həyata keçirilən “Ölkəmizi tanıyaq” layihəsi məktəblilərin gələcək inkişafında xüsusi əhəmiyyətə malikdir. Tur-aksiya çərçivəsində şagirdlər ölkəmizin müxtəlif şəhər və rayonlarının zəngin və çoxəsrlik tarixi, mədəniyyəti haqqında dolğun məlumat əldə edir, yeni dostlar qazanırlar.

***- Dövlət Komitəsinin beynəlxalq əlaqələri hansı səviyyədədir? Bu barədə də məlumat verməyinizi xahiş edirik...***

- Xarici ölkələrlə və nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətlərinin qurulması, qadın hüquqları və gender bərabərliyi sahəsində keçirilən beynəlxalq əhəmiyyətli konfranslarda iştirak, eyni zamanda bu cür tədbirlərin Azərbaycanda keçirilməsi öz nəticələrini verməkdədir. Azərbaycanın ailə, gender siyasəti üzrə təcrübəsi bir çox ölkələrin böyük marağına səbəb olmuşdur. Və bəzi dövlətlər ölkəmizin uğurları ilə yaxından tanış olmaq, təcrübə mübadiləsi aparmaq üçün bizə müraciət edirlər. Bu il Böyük Britaniyada Lordlar Palatasında ölkəmizdə həyata keçirilən ailə, qadın və uşaq siyasəti üzrə məruzə dinlənilmiş və respublikamızın təcrübəsi iştirakçılar tərəfindən yüksək qiymətləndirilmişdir. Eyni zamanda, Avropa Şurası tərəfindən qadınların irəli çəkilməsi və təmsilçiliyi ilə bağlı vacib araşdırmalar həyata keçirilmişdi. Bunlardan sonuncu “Qadınların və kişilərin qərarqəbuletmədə balanslı təmsilçiliyi” adlı təhlil olmuşdu. Layihə çərçivəsində çap edilən kitabda qadınların ayrı-ayrı sahələrdə qadınların idarəçilikdə təmsilçiliyi üzrə 47 ölkənin statistik məlumatları əks olunur və müqayisə edilir. Azərbaycan Respublikası xüsusilə bu sahə üzrə vacib nailiyyətlərin əldə etdiyi qeyd edilir və gördüyünüz kimi, cədvəllərdə müsbət təcrübə əldə etdiyi dövlət kimi əks olunub. Sorğuya əsasən 2006-2015-ci illər üzrə Avropa Şurası dövlətləri arasında Azərbaycan Respublikası statistik müqayisələrə əsasən qadınların təmsilçiliyin artırılması ilə bağlı ən yaxşı nəticələr əldə etdiyi müəyyən edilmişdi. Bu əlbəttə ki, bir daha qeyd edirəm ki, dövlət qadın siyasətinin uğurlu nəticəsidir.

Hər bir cəmiyyətin inkişafı onun vətəndaşına göstərdiyi diqqətdən asılıdır. Müstəqil Azərbaycan Respublikasında hər bir vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, xüsusilə, qadın və uşaq hüquqlarının müdafiəsinin reallaşdırılması üçün bütün imkanlar yaradılmışdır. Möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri desək, “Bizim siyasətimizin mərkəzində insan dayanır”. Bizim hər birimiz öz üzərimizə düşən vəzifəni yerinə yetirməklə Azərbaycan vətəndaşının hərtərəfli inkişafına nail olmalıyıq.

# Azərbaycan “2018 İqtisadi Azadlıq” indeksində irəliləyib

***Azərbaycan “2018 İqtisadi Azadlıq” indeksində bir pillə irəliləyərək 180 ölkə arasında 67-ci yerdə qərarlaşıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən AZƏRTAC-a bildirilib ki, Heritage Foundation tərəfindən hazırlanan hesabatda bildirilir ki, son on il ərzində həyata keçirilən davamlı iqtisadi islahatlar nəticəsində Azərbaycan ümumi orta hesab üzrə regional və dünya göstəricilərindən üstün olaraq, Asiya-Sakit Okean regionunda 43 ölkə arasında 14-cü yerdə müəyyənləşdirilib. Bundan əlavə, sözügedən indeks üzrə Azərbaycan Fransa, İtaliya və Yunanıstan kimi inkişaf etmiş ölkələr ilə müqayisədə ön sıralarda yer tutub. Həmçinin Rusiya da daxil olmaqla bir sıra MDB ölkələrini qabaqlayıb.***




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ayaz Çaparlı bildirir ki, Azərbaycanın “2018 İqtisadi azadlıq indeksi”, “İnklüziv İnkişaf indeksi 2018”, “2018 Doing Business” və “Qlobal Rəqabətlilik İndeksi”ndə mövqeyinin gücləndirilməsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin məqsədyönlü, dərin və köklü iqtisadi islahatlara beynəlxalq qiymətdir. A.Çaparlı əlavə edib ki, İqtisadi azadlıq indeksi 4 əsas indikator olmaqla, 12 alt-indikatora əsasən formalaşır. “Qanun Aliliyi”, “Dövlət payı”, “Səmərəli tənzimləmə” və “Bazarların açıqlığı” əsas indekslər (indikatorlar) olmaqla ölkələrin reytinqini formalaşdırır. Qeyd olunan əsas indikatorlar üzrə isə müəyyənləşdirilən əsas alt-indikatorlara mülkiyyət hüquqları, hökumət bütövlüyü, məhkəmə effektivliyi, dövlət xərcləri, vergi yükü, fiskal sağlamlığı, biznes azadlığı, əmək azadlığı, pul azadlığı, ticarət azadlığı, investisiya azadlığı və son olaraq maliyyə azadlığı aid olunur. Hər bir alt-indikator indeks üzrə reytinqdə bərabər xüsusi çəkiyə malikdir.

“Qanunun Aliliyi” indikatoru üzrə təyin olunan hər üç alt-indikator istiqamətində Azərbaycan irəliləyiş əldə edib ki, bu da Azərbaycanın İqtisadi Azadlıq indeksi reytinqində bir pillə yüksəlməsində mühüm əhəmiyyət kəsb edir. Həmçinin, digər indikatorlar üzrə də artım müşahidə olunur. Bunlara misal olaraq, dövlət xərclərində inkişaf qeyd olunub və son üç il ərzində dövlət xərclərinin ÜDM-in 36,8 faizini təşkil etməsi müəyyənləşdirilib. Eyni zamanda, vergi yükü alt-indikatoru üzrə azalma qeyd olunub və ümumi vergi yükü ümumi gəlirin 15 faizini təşkil edir. Fiskal sağlamlıq alt-indikatoru dünya orta göstəricilərini üstələyərək, 95,5 faiz səviyyəsində müəyyənləşdirilib.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 13 iyul tarixli Sərəncam imzalayıb. Eləcə də “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” Fərman imzalanıb. Bu Sərəncam və Fərmanlar nəticəsində bir sıra istiqamətlər üzrə mövcud vəziyyətin yaxşılaşdırılması, maliyyə sabitliyi və davamlı iqtisadi inkişafın təmin olunması, Azərbaycanın iqtisadi mövqeyinin gücləndirilməsi ilə bağlı bir sıra mühüm nailiyyətlər əldə olunub.

A.Çaparlı bildirir ki, bu kimi uğurlara misal olaraq, Azərbaycanın İqtisadi Azadlıq indeksi üzrə reytinqdə irəliləməsi və bu indeks istiqamətində müəyyənləşdirilən indikatorların: biznes, əmək və maliyyə azadlığı göstəricilərinin dünya orta səviyyədən yuxarıya qalxması, eyni zamanda, ticarət və investisiya azadlığının isə dünya orta göstəricilərinə demək olar ki, bərabər səviyyədə olmasını qeyd etmək olar.

# Son 10 gündə “Teleqüllə” sürüşmə sahəsindəki çatlarda dəyişiklik müşahidə olunmayıb



“Teleqüllə” sürüşmə sahəsindəki çatlarda heç bir dəyişiklik yoxdur. Son 10 gündür stabillik müşahidə olunur. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları ən son bu gün səhər həmin ərazidə monitorinq aparıblar. Bu barədə AZƏRTAC-a nazirliyin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji Planalma Ekspedisiyasının rəisi Əziz Qaralov məlumat verib. “Yağıntılar olacağı halda sürüşmənin aktivləşməsi haqqında fikir bildirmək hələ tezdir. Çünki sürüşməyə səbəb təkcə atmosfer yağıntıları deyil. Lakin bu da prosesin aktivləşməyəcəyi anlamına gəlməz”, - deyə ekspedisiya rəisi qeyd edib.

Xatırladaq ki, paytaxtın Səbail rayonunda Teleqüllədən 200-250 metr cənub-şərqdə yerləşən “Teleqüllə” sürüşmə sahəsində eni 1 metrədək, vizual görünən dərinliyi 4-7 metr arasında olan çatlar qeydə alınıb. Prosesin baş verməsinə səbəb atmosfer yağıntıları və sahənin aşağı hissəsində tikinti məqsədilə yamacın şaquli kəsilməsi olub.

# Energetika Nazirliyi: Yanvarda Azərbaycanda gündəlik neft hasilatı 814,6 min barrel olub



Azərbaycan yanvar ayı üzrə gündəlik neft hasilatı ilə bağlı məlumatları Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) təqdim edib. Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirlik OPEC-ə üzv olan və kartelə daxil olmayan ölkələrin neft hasilatının azaldılması ilə bağlı Vyana razılaşmasına uyğun olaraq Azərbaycanın cari ilin yanvar ayı ərzində gündəlik neft hasilatı ilə bağlı məlumatlarını Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına təqdim edib. Həmin məlumatlara əsasən, cari ilin yanvar ayı ərzində respublika üzrə gündəlik neft hasilatı 814,6 min barrel olub. Bunun 759,7 min barrelini xam neft, 54,9 min barrelini kondensat təşkil edib. Gündəlik 624,2 min barrel xam neft, 54,9 min barrel kondensat, 14,3 min barrel isə neft məhsulları ixrac edilib. Neft hasilatının azaldılması üzrə sazişə müvafiq olaraq Azərbaycan hasilatı sutkada 35 min barrel azaltmaqla bağlı götürdüyü öhdəliyi növbəti dəfə də yerinə yetirib. Azərbaycan üzrə gündəlik neft hasilatının 834 min barrel həcmində saxlanmasına dair razılaşma müqabilində 2017-ci il ərzində ölkəmizdə orta gündəlik neft hasilatı 781,9 min barrel təşkil edib.

# Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri siyahısındadır

**_Davamlı inkişafı və spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycan inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayır. Müasir dövrümüzdə Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur və ictimai-siyasi sabitlik möhkəmlənir. Ölkənin qarşısında duran bütün əsas vəzifələr uğurla icra edilir._**



Bunun təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Təməli Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dünyada qlobal maliyyə böhranının getdikcə dərinləşməsi ilə müşayiət olunan son 14 ildə həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə edilir və Azərbaycan modeli dünya ölkələri üçün nümunəyə çevrilib.

Dünyada nümunə kimi qəbul edilən inkişafın Azərbaycan modelinin səciyyəvi cəhətlərindən danışarkən, ölkənin regionlarının tarazlı şəkildə inkişaf etdirilməsinin strateji kurs kimi müəyyənləşdirilməsini xüsusi qeyd etmək lazımdır. Prezident İlham Əliyevin siyasi iradəsi əsasında müəyyənləşdirilən, bu strateji kursa uyğun olaraq, müxtəlif istiqamətləri əhatə edən layihələr yalnız paytaxtımızda və yaxud iri şəhərlərdə deyil, respublikanın bütün bölgələrində reallaşdırılır. Prezident İlham Əliyevin rəhbərliyi ilə müddətdə ölkəmizdə yaradılmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı, eləcə də, mövcud çağırışların tələblərinə uyğun çevik iqtisadi islahat tədbirləri sayəsində ölkə iqtisadiyyatı öz dayanıqlılığını möhkəmləndirir.

Ölkədə davamlı inkişafın təmin olunmasında, sözsüz ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının müstəsna əhəmiyyəti vardır.

Müasir çağırışların tələblərinə uyğun çevik iqtisadi siyasət, bilavasitə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatlar nəticəsində, ölkədə qeyri-neft sektorunun inkişafı sürətlənib, davamlı sosial-iqtisadi inkişafa nail olunub, əhalinin həyat səviyyəsi daha da yaxşılaşıb. Əldə olunan bütün nailiyyətlər dövlətimizin apardığı uğurlu siyasətin nəticəsidir.

Həyata keçirilən dövlət proqramları nəticəsində, Azərbaycanın siması dəyişib. Bu proqramlar nəticəsində regionlarda sosial - iqtisadi inkişaf, infrastruktur yenilənmələri baş verib və regionların iqtisadi inkişafı üçün hər bir şey tam təmin olunub. Enerji daşıyıcısı, qaz, işıq problemi, yol və körpü salınması, bir sıra obyektlərin tikilməsi və digər problemlər mərhələli şəkildə öz həllini tapıb. Yeni iş yerlərinin açılması, Azərbaycan brendi məhsullarının istehsalı və ixracatı prosesi başlanıb. Bu dövlət proqramlarının regionların harmonik inkişafında əvəzsiz rolu var. Bu uğurlar və nailiyyətlər dünyanın diqqətindən kənarda qalmır. Elə bu günlərdə ABŞ-ın "U.S. News & World Report" jurnalı 2018-ci il üçün dünyanın ən yaxşı ölkələrinin siyahısını dərc edib. Azərbaycan reytinqdə beş pillə irəliləyib. Ölkəmiz reytinq cədvəlində 2017-ci ildəki 69-cu yerdən 64-cü yerə yüksəlib. Cədvəldə liderlər demək olar ki, dəyişməyib: ilk beş yeri İsveçrə, Kanada, Almaniya, Böyük Britaniya və Yaponiya tutub.

Reytinq ekspertlərin 36 ölkədən 21 min nəfər arasında keçirdikləri sorğunun nəticələri əsasında tərtib olunub. Ölkələr turizm baxımından cəlbediciliyi, təbiətinin gözəlliyi, siyasi nüfuzu, təhsilin səviyyəsi və digər amillər üzrə qiymətləndirilib. Həqiqətən də, Azərbaycan bu gün böyük inkişaf yolu keçib. Ölkəmizin istənilən regionunu Avropanın istənilən ərazisi ilə müqayisə etdikdə regionun və ərazimizin üstünlüyünü görürük. Azərbaycanın istənilən regionunda yaşayan əhalinin mədəni - sosial həyatında çox böyük irəliləyiş və müsbət mənada, dəyişikliklər özünü bariz şəkildə göstərir. Bu proqramlardakı əsas məqsədlərdən biri regionlarda, qeyri-neft sektorunun, aqrar, o cümlədən, turizm nəqliyyat sektorunun inkişaf etdirmək və yerli sahibkarlığa dövlət dəstəyinin verilməsidir.

Respublikamızda Prezident İlham Əliyevin müvafiq fərmanları ilə təsdiqlənən regionların sosial-iqtisadi inkişafına dair 2004-2008 və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramı uğurla reallaşdırılıb. Əvvəlki illərdə yaradılan möhkəm baza və qazanılan təcrübə 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramının qəbul edilməsi üçün möhkəm əsas olub. Hazırda üçüncü Dövlət Proqramı da böyük müvəffəqiyyətlə yerinə yetirilir.

Beləliklə, tam qətiyyətlə demək mümkündür ki, son 14 ildə respublikamızda regionların sosial-iqtisadi inkişafında bəhs olunan dövlət proqramları mühüm rol oynayıb. İlk Dövlət Proqramının icrasına start veriləndən etibarən Azərbaycanın bölgələrində 70 mindən çox müəssisə fəaliyyətə başlayıb və regionlarda ümumi məhsul buraxılışı əhəmiyyətli dərəcədə artıb. Ən önəmli cəhətlərdən biri odur ki, dövlət proqramlarının uğurla reallaşdırılması sayəsində bir çox göstəricilər üzrə bölgələrdə artım tempi ölkə üzrə müvafiq göstəriciləri üstələyib.

**_ZÜMRÜD_**

## Herhard Şröder "Qazprom" və "Nord Stream-2" üçün lobbiçilik edir



AFR-in sabiq kansleri Herhard Şröder uzun illərdir ki, "Nord Stream" şirkətinin səhmdarlar komitəsinə başçılıq edir. AZƏRTAC xəbər verir ki, indi Şröder bu layihənin ikinci növbəsi üçün lobbiçilik edir. "Alman dalğası" agentliyinin rus dilində yaydığı videoreportajda Almaniya hökumətinin sabiq rəhbəri energetika sahəsində Rusiya ilə əməkdaşlığın faydalı olduğunu bildirib (bax: https://www.youtube.com/watch?v=vW5bcl9tEog). Bununla bərabər, Şröder Şərqi Avropa ölkələrinin narahatlığını əsassız hesab edir. O əmindir ki, ABŞ-ın nəyə görə "Şimal axını-2" boru kəməri tikintisinin əleyhinə olmasının səbəbini bilir.




## Görkəmli bəstəkarın 100 illiyinə həsr olunmuş elmi konfrans keçiriləcək

Fevralın 8-də Azərbaycan Bəstəkarlar İttifaqında dünya şöhrətli bəstəkar Qara Qarayevin 100 illik yubileyinə həsr olunmuş elmi konfrans keçiriləcək. AZƏRTAC xəbər verir ki, tədbirdə respublikanın bir sıra tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı nəzərdə tutulur. Konfransda Qara Qarayevin yaradıcılığından danışılacaq və Azərbaycan musiqi mədəniyyəti tarixindəki rolundan bəhs edən elmi məruzələr dinləniləcək.

## Muxtar respublikada pensiyaların poçt bölmələri tərəfindən ödənilməsi üçün müvafiq tədbirlər görülür

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun rayon şöbələri ilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yerli poçt bölmələri arasında müqavilələr imzalanıb. Bundan sonra kənd yerlərində yaşayan pensiyaçılar istəklərinə əsasən öz pensiyalarını rayon mərkəzlərinə getmədən, əlavə vaxt itirmədən və vəsait sərf etmədən həmin yaşayış məntəqələrindəki poçt bölmələrindən ala bilərlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, kənd yerlərində yaşayan pensiyaçılar istədikləri halda Dövlət Sosial Müdafiə Fondunun müvafiq rayon şöbələrinə və "Naxçıvanpoçt" MMC-nin yerli poçt bölmələrinə müraciət edə bilərlər.

## Azərbaycanda məktəb laboratoriyaları üçün xüsusi avadanlıq istehsal ediləcək

Azərbaycanda məktəb laboratoriyaları üçün xüsusi avadanlıq istehsal ediləcək. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib. Nazir müavini bildirib ki, xüsusi avadanlığın istehsalı ilə "Labdisc Azerbaijan" şirkəti məşğul olacaq. Qeyd edək ki, bu şirkət Sumqayıt Kimya Sənaye Parkının yeni - 16-cı rezidentidir.

## Azərbaycanda 5 sənaye parkı, 4 sənaye məhəlləsi yaradılıb



Azərbaycanda 5 sənaye parkı, 4 sənaye məhəlləsi yaradılıb. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib. Nazir müavini qeyd edib ki, Azərbaycanda çox güclü sənaye potensialı var. İqtisadiyyat Nazirliyi hazırda 2018-ci ildə istehsala başlayacaq "SOCAR Polymer" layihəsinin məhsulları üçün potensial istehlakçı axtarır. Artıq 15 şirkətlə danışıqlar aparılır. "Sumqayıt Kimya Sənaye Parkında 15 rezident var, bu günlərdə daha 1 rezident qeydiyyata alınıb", - deyə N.Səfərov diqqətə çatdırıb.

## "ASAN kadr" karyera mərkəzi və Bakı Ali Neft Məktəbi birgə "Karyera sərgisi" keçirəcək

ASAN Könüllülük Məktəbinin "ASAN kadr" karyera mərkəzi və Bakı Ali Neft Məktəbi gənclərin məşğulluğunu artırmaq üçün martın 1-də "1-ci Karyera sərgisi" keçirəcək. Könüllülük Məktəbindən AZƏRTAC-a bildiriblər ki, karyera sərgisi bütün vətəndaşlar üçün açıq olacaq. Bakı Ali Neft Məktəbinin yeni kampusunda keçiriləcək sərginin əsas məqsədi savadlı, bacarıqlı, təcrübəli və iş potensialı ilə fərqlənən gənclərin dövlət və özəl qurumlarda işlə təmin olunmalarına dəstək olmaq və müəssisələrin mövcud iş vakansiyaları haqqında məlumat vermələri üçün şərait yaratmaqdır.




Qeyd edək ki, "ASAN Kadr" karyera mərkəzinin yaradılmasında əsas məqsəd ASAN Könüllülük Məktəbinin məzun könüllülərinin peşəkar karyera qurmalarına dəstək olmaqdır. Bu günə kimi 850-dən çox məzun ASAN kadr işlə təmin edilib. Onların uğur hekayələri də www.asankadr.az portalında işıqlandırılıb.

# "Hazırda Əli Kərimli özünü itirib və çaşqın vəziyyətdə ağzına və ağlına gələni danışır"

***Müxalifətçilərin növbədənkənar prezident seçkiləri ilə bağlı hay-küy qaldırmaları və seçkiləri boykot edəcəklərini bəyan edib, kütləvi aksiyalar keçirəcəklərini bildirmələri, onların anormal durumda olduqlarını göstərir. Bu da, onların iyrənc siyasətinin hələ də davam etdiyini və xalqdan uzaq qaldıqlarının növbəti sübutu sayıla bilər.***

## BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı:



- Son 25 ildir ki, boykot çağırışını elan edən Ə.Kərimli özündə cəsarət tapıb prezidentliyə namizədliyini irəli sürə bilmir. Bu, bir faktdır ki, Ə.Kərimli cəsarət edib Prezident İlham Əliyevə rəqib ola və meydana çıxa bilmir. İndi isə Cənab Prezidentin seçkilərin 11 aprelə keçirilməsi ilə bağlı verdiyi Sərəncam radikal müxalifəti mat vəziyyətinə salıb. Çünki müxalifət indiki situasiyada hansı addımı atacağını və nə qərar verəcəyini bilmir. Çünki radikal müxalifət düşərgəsini təmsil edən şəxslər konkret gözləyirdilər ki, prezident seçkiləri oktyabr ayında olacaq və bu müddət ərzində də özlərinin təsir altına düşdükləri beynəlxalq təşkilatlardan hansı sifarişin gələcəyini gözləyirdilər. Beynəlxalq təşkilatlar düşünmürdülər ki, Prezident İlham Əliyev, elə bir addım ata bilər. Bildiyiniz kimi, prezident seçkilərinə 9 ay vaxt qalmışdı və radikal müxalifət təmsilçiləri düşünürdülər ki, yay fəslində bu proseslərlə bağlı pozuculuq aktlarına başlayarlar. Ancaq Prezidentin verdiyi Sərəncam müxalifəti mat vəziyyətə saldı. Demək olar ki, hazırda Ə.Kərimli özünü itirib və çaşqın vəziyyətdə ağzına və ağlına gələni danışır. Ümumiyyətlə, hər kəs bilir ki, "Milli Şura"nın keçirdiyi mitinqə İran molla rejiminin təsiri altında olan şəxslərin qatıldığı təqdirdə belə, min nəfərdən artıq mitinqçi olmayıb. Yəni həmin mitinqdə polislər, hüquq-mühafizə orqanları, əməkdaşları, jurnalistlər, tum satanlar və su satanların hamısı ilə bir yerdə iki mindən artıq adam olmayıb. Bir sözlə, Ə.Kərimlinin açıqlamaları başını itimiş bir insanın sərsəm arqumentlərindən ibarətdir.

## Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov:

- Müxalifətin növbədənkənar prezident seçkiləri ilə bağlı qalmaqalların bir neçə səbəbi var. İlk növbədə, bunlar, onsuz da məğlubiyyətlərini əvvəlcədən bilirlər və onu da yaşxı anlayırlar ki, seçkiyə 6 aya hazırlaşmırlar. Bunun üçün arxada 4 il 6 ay müddət var idi. Keçən seçkilərdə biabırçılıqla uduzan müxalifət məğlubiyyətdən sonra seçkilərə hazırlaşmalı idi. Əslində, bunlar 1993-cü ildən uduzurlar və hazırlaşmalarına 25 il vaxt var idi. Yəni seçkiyə hazırlaşmaq üçün vaxtın azlığı, sadəcə, bir bəhanədir. Xalq səni dəstəkləmirsə, sosial bazan yoxdursa, hakimiyyətə gəlməyin resursların xaricdə axtarırsansa, hazırkı mərhələdə bu mümkünsüzdür. Azərbaycan güclü dövlətdir, indi keçən əsrin 90-cı illəri deyil ki, hansısa qüvvələrin hesabına, kimlərinsə dəstəyi ilə Azərbaycanda siyasi hakimiyyətə gəlmək mümkün olsun. "O zaman biz 9 dövlətlə razılaşıb hakimiyyətə gəlmişik" deyənlər, hələ də o yuxuları görürlərsə, çox yanılırlar. Azərbaycanda hakimiyyətə gəlməyin bir yolu var, o da seçkilərdə xalqın səsini qazanmaq yoludur. O zaman sual yaranır: Bunlar bəs nə səbəbə bu qədər narahatdırlar? Hər dəfə seçkiyə 3-4 ay qalmış guya fəallaşırdılar, mitinqlər keçirməyə çalışırdılar və bu yolla da xaricdən külli miqdarda maliyyə vəsaiti alaraq, yeyirdilər. İndi seçkinin vaxtının elan edilməsi bunların para qazanmaq şanslarını alt-üst etdi. Nəzərə alsaq ki, mitinqlərinə də beş-altı yüz adam yığılırdı. Sonra bir qisminə pulla arayışlar satmaqla, onları aldadıb "Avropada siyasi sığınacaq alacaqsınız" deyə aldadırdılar. Bu yolla nə qədər bədbəxt etdikləri insanlar hələ də Avropada kamplarda bunlara lənət yağdırırlar. Burada da xeyli vəsait qazanmaq imkanları əllərindən çıxmış oldu.



Seçkini boykot etmələri ilə bağlı sərsəmlələrinin iflasa uğraması siyasi don geyindirmələrinin də başqa bir adı yoxdur. Xalq kimi dəstəkləyəcəksə, həmin namizədi də seçəcək. Bu gün 14 ildir ki, xalqa xidmət edən, xalqın etimadını ən yüksək səviyyədə qazanmış siyasi lider, siyasi rəhbər var və xalqın 99 faizi onun arxasındadır. Xalq onu düşünən, onun mənafeyini qoruyan, təmin edən, dövləti inkişaf etdirən liderini qoyub, uğursuz və səriştəsiz namizədləri dəstəkləməz. Həqiqət budur və bu gün Prezident İlham Əliyevin və Onun tutduğu siyasi xəttin alternativsizliyinin də sadə düsturu bundadır.

Bunların seçkiyə hazırlıqla bağlı qaldırdıqları ajiotajın müqayisəsi on il altı ay dərslərindən qeyri-kafi qiymət alan fərsiz şagirdlərin ali məktəbə qəbul olunması kimi puç xülyalarla eyniyyət təşkil edir. İki illik uğursuz hakimiyyətləri müddətində ölkəni uçuruma aparan, onu dağıdan, talan edən və müstəqilliyini təhlükə altına atmış bir qrup siyasi qaragüruha tarixin dərslərindən hələ də nəticə çıxarmayıblar. Radikal müxalifətin siyasi mübarizə texnologiyası sosial şəbəkələrdə saxta profillər açmaqla və bir qrup xaricə qaçmış satqınlarla əlbir olmaqla ölkənin nüfuzunu aşağılamağa cəhddən, əxlaqlarına müvafiq söyüşlər və təhqirlər yazmaqdan ibarətdir.

**GÜLYANƏ**

# Müsavat "Milli Şura"-AXCP cütlüyünün hədəfində

*Radikal düşərgədə seçki qalmaqalları artır*

***Növbədənkənar seçki qərarının verilməsi dağıdıcı müxalif düşərgədə fikir ayrılığına səbəb olub. Belə ki, bir sıra partiyalar seçkiyə qatılacaqlarını, digərləri isə qatılmayacaqlarını, üstəlik, aksiyalar keçirəcəklərini iddia edirlər.***

Bu arada uzun illərin düşmənləri olan cəbhəçilərlə müsavatçılar arasında kəskin qarşıdurmalar yaşanmaqdadır. Məsələ ondadır ki, AXCP sədri Əli Kərimlinin sədri olduğu AXCP-nin "Milli Şura" ilə birgə seçkiləri boykot edəcəyini deməsi vəziyyətin gərginləşməsinə səbəb olub. Daha doğrusu, "Milli Şura"nın sədri Cəmil Həsənlinin özünün sosial şəbəkə hesabında seçkiləri boykot etmək, eləcə də, kütləvi aksiyalar keçirmək ətrafında etdiyi çağırışları müxalifətdə birmənalı qarşılanmayıb.

## İsa Qəmbər, Arif Hacılı və s. Müsavat yetkililəri ən ağır ifadələrlə təhqir obyektinə çevrilir və riyakarlıqda günahlandırılırlar

Xüsusilə, seçkilərdə "MSDM" sədri, Müsavatın sabiq başqanı olan İsa Qəmbərin namizədliyinin irəli sürüləcəyi barədə fikirlərin gündəmdə olması cəbhəçiləri qıcıqlandırıb. Düzdür, müsavatçıların hazırkı başqanı Arif Hacılı seçki taktikalarının müəyyən eidlmədiyini desə də, yaxın günlərdə qurultayın keçiriləcəyi və növbədənkənar seçkilərlə bağlı dəqiq fikrin müəyyənləşəcəyi bildirilib. Hətta bir neçə ay öncə, İ.Qəmbər də seçkilərdə iştirakını elan etmişdi. Bu günə qədər müsavatçıların hələ də dəqiq qərar verməmələri isə, onların seçkiyə gedəcəkləri ehtimalını artırmış olur.

Nəticədə, bu amili hədəfə alan AXCP-çilər sosial şəbəkələrdə və müxtəlif kuluarlarda Müsavat üzvlərini müxalifətçiliyə xəyanət etməkdə, "hakimiyyətə işləməkdə" suçlayırlar. Hətta İ.Qəmbər, A.Hacılı və s. Müsavat yetkililəri ən ağır ifadələrlə təhqir obyektinə çevrilir, riyakarlıqda günahlandırılırlar.

Söz yox ki, müsavatçılar da boş dayanmır və Ə.Kərimlinin illər öncə parlament və prezident seçkilərindəki xəyanətlərini xatırladırlar, eləcə də, edilən həqarətlərə daha ağır tonda həqarətlər edilir.

## Seçkini boykot edəcəklərini iddia edənlərin bu addımları heç bir ictimai-siyasi dəstək almayacaq

Digər maraqlı məqam isə, seçkiyə getmək istəyənlərlə getməyəcək müxalifət partiyalarının qarşıdurmalarının eyni kontekstə əhatə etməsidir. Məsələn, son vaxtlar aralarında kəskin qarşıdurmalar yaşanan "REAL" hərəkatı da AXCP-nin taktikasından çıxış edir, KXCP, "Ümid", VİP, "Ağ partiya", ADP, VHP, AMİP, ALP kimi partiyalar isə seçkiyə qatılmaq marağında olduqlarını bildirirlər. Bu isə, bir daha sübut edir ki, parçalanmış və heç vaxt bir yerdə olmayan müxalifət yenə də bir neçə qanada bölünüb. Bu baxımdan, nəticəyə gəlmək olar ki, seçkini boykot edəcəklərini iddia edənlərin bu addımları heç bir ictimai-siyasi dəstək almayacaq. Əlbəttə ki, özlərinə də növbəti zərbəni vurmuş olacaq.

**Rövşən RƏSULOV**

# Silsilə oğurluqlar törədən şəxslər saxlanılaraq istintaqa cəlb ediliblər



***Daxili işlər orqanlarının əməkdaşları tərəfindən ümumən cinayətkarlığa, o cümlədən mülkiyyət əleyhinə olan növlərinə qarşı mübarizə tədbirləri davam etdirilir. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bir sıra oğurluqlar törədən şəxslər ötən gün polis orqanları tərəfindən keçirilən əməliyyat tədbirləri nəticəsində müəyyən edilib saxlanılaraq istintaqa cəlb ediliblər.***

Belə ki, Kriminalistik Tədqiqatlar İdarəsi və Sumqayıt Şəhər Polis İdarəsinin 2-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ötən il noyabr ayından cari il yanvarın 19-dək olan müddətdə 8 evdən, 1 sexdən inşaat materialları, təmir-tikinti alətləri, elektrik naqili və məişət əşyaları oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş Rasim Əliyev saxlanılıb. Ötən ilin noyabr ayından cari il yanvarın 24-dək olan müddətdə 10-cu mikrorayondakı evlərin birinin liftinin əyləc dolağını, 1 mağazadan və 1 evdən inşaat materialları və məişət əşyaları oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş Murad Xanbalayev Sumqayıt Şəhər Polis İdarəsinin 1-ci polis bölməsinin əməkdaşları tərəfindən saxlanılıb. Ötən ilin noyabr ayından cari il yanvarın 11-dək olan müddətdə 3 avtomobildən və 4 evdən pul, məişət əşyaları, akkumulyator və maqnitofon oğurlamaqda şübhəli bilinən Gəncə şəhər sakini Münasib Əhmədov Kəpəz Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıb. Beyləqan Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən ötən ilin aprelində və cari il yanvarın 21-də rayon ərazisindəki 2 evdən pul, mobil telefon və qızıl əşyalar oğurlamaqda şübhəli bilinən Örənqala qəsəbə sakinləri Yaşar Hacıyev və Nizami Nağıyev saxlanılıblar. Faktlarla bağlı cinayət işləri başlanılıb.

***Bizi ətrafımızda olan təbiət bizim evimizdir. İnsan təbiətin bir hissəsi olub onunla sıx bağlıdır. Bizim yaşadığımız dünya çox gözəldir. O, həm də əsrarəngiz və maraqlıdır. Biz zəngin və füsunkar bitkilər aləmin, vəhşi heyvanlardan tutmuş ən xırda həşəratlara qədər saysız-hesabsız canlılar əhatəsindəyik. Əslində, Yer kürəsi adlandırdığımız planetin məzmunu da elə ən şüurlu və ən ali varlıqlar olan biz insanlarla bizi əhatə edən təbiətin harmoniyasıdır. Təbiət insanların yaşayış mühiti vəzifəsini görür, onun vəziyyəti cəmiyyətin rifah və inkişaf səviyyəsini təyin edir. O, bir sıra fiziki, kimyəvi, bioloji hadisələrlə zəngindir. Ətraf mühitin bərbad vəziyyətə düşməsinə insanlar səbəb olduqları üçün, həmin səhvləri insanların özləri aradan qaldıra bilər. İnsan özü üçün nə varsa - hava, su, maddi nemətlər, sənaye üçün xammal və digərlərini təbiətdən alır və istifadə edir. Bu sərvətlərdən yüz illərdən bəri kortəbii istifadə olunması nəticəsində, ətraf mühit dünya miqyasında dəyişilməyə məruz qalıbdır. Bu vəziyyət müasir elmi-texniki tərəqqi dövründə daha da kəskinləşib. Son yüzillikdə iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə artan mənfi təsiri və təbii sərvətlərin həddindən artıq istismarı ilə nəticələnmişdir. Əksər ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə olunması problemlərinin həllinə böyük diqqət yetirilir.***

# Ekologiya və ətraf mühitin mühafizəsi

## Bəşəriyyəti gözləyən ekoloji təhlükə!

Hələ XX əsrin başlanğıcında Yer kürəsinin əhalisi təmiz hava alır, saf su içirdilər. Dünya sonsuz, təbii sərvətlər isə tükənməz hesab edilirdi. Lakin bir neçə onilliklərdən sonra dünya olduqca təhlükəli ekoloji fəlakət hüdudunda qaldı. Ekoloqların fikrincə, əgər bəşəriyyət bu yolu davam etdirərsə, yaxın bir neçə nəsildən sonra onu fəlakət gözləyir. Bəşəriyyət öz ixtiyarında olan təbii resurslardan heç də həmişə ağılla istifadə etməmişdir. İnsan bitki və heyvan növlərini məhv etmiş, dağıdıcı müharibələr aparmış, meşələri qırmış, torpaqları səhralığa çevirmiş, enerji növlərindən səmərəli istifadə etməmişdir. Bu gün bəşəriyyətin özü yaratdığı qlobal ekoloji böhran qarşısında qalmışdır. Sənayenin sürətli inkişafı, əhalinin say artımı, kosmosdan istifadə təbii qanunauyğunluqların bu və ya digər dərəcədə pozulmasına səbəb olmuşdur. Zavodlar, fabriklər, avtomobillər, təyyarələr atmosferi çirkləndirir, küllü miqdarda oksigeni udur və zərərli qazlar buraxır. Atom bombalarının sınaqdan keçirilməsi və atom enerjisi əsasında işləyən müəssisələrin tullantılarına məsuliyyətsiz münasibət hava, su və torpağın həddindən artıq radioaktivləşməsinə səbəb olmuşdur.

## Müasir ekoloji problemlər

Müasir ekoloji problemlərin inkişafında avtomobillərin xeyli artması, hava nəqliyyatından istifadələrin çoxalması, bununla yanaşı, su nəqliyyatı gəmilərinin və tankerlərin hərəkəti zamanı atmosferə buraxılan (Dizel) ağır yanacaqdan istifadə edilməsindən yaranan azotoksid qazlarının yaratdığı ekoloji çirklənmələr danılmazdır. Ümumdünya ölkələrinin ekoloqları və aidiyyəti təşkilatlar həyəcan təbili çalaraq, karbon qazının artmasına öz münasibətlərini bildiriblər. Bunun nəticəsi olaraq respublikamızda bir vaxtlar avtomobillərdən ətraf mühitə buraxılan azotoksid və dəm qazına qarşı geniş tədbirlər keçirilib. Qismən də olsa, həyata keçirilən tədbirlər öz bəhrəsini verib, azotoksid və dəm qazının azalmasına nail olunub. Hava nəqliyyatı yüksək templə inkişaf edirsə də, bir o qədər də ekoloji amillərə təsir göstərir.

## Ekoloji normativ sənədlərin işlənilməsi

Bu baxımdan, ekoloji siyasətin əsasını təşkil edən ətraf mühitin sağlamlaşdırılması sahəsində nəticə əldə etmək məqsədilə respublikamızda Avropa qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmış bir sıra mühüm qanunlar qəbul olunmuş, normativ-hüquqi sənədlər, dövlət proqramları hazırlanmış və təsdiq edilib. Respublika üçün aktual olan ekoloji problemlərin dayanıqlı inkişaf prinsipləri əsasında həll edilməsi məqsədilə müvafiq dövlət proqramları çərçivəsində tədbirlər görülür. Ekoloji Normativ Sənədlərin işlənilməsi - "Ətraf Mühitin Mühafizəsi Haqqında" Azərbaycan Respublikasının 08.06.1999-cu il tarixli 678 -1Q saylı Qanununa, "Ekoloji Pasport" QOST 17.0.0.04-90-ci il tarixli və atmosfer havası, torpaq və yerüstü su obyektlərində zərərli maddələrin qatılıqlarının yol verilən son hədləri üzrə normativ-hüquqi sənədlərin təsdiq edilməsi haqqında AR Nazirlər Kabinetinin 2000-ci il tarixli Qərarına əsasən yerinə yetirilir. Bu istiqamətdə Ekologiya İdarəsinin Ekoloji Monitorinq Departamentində fəaliyyət göstərən Ekoloji Normativ sənədlərin hazırlanması qrupu fəaliyyət göstərir. Qrup bu sahədə ixtisaslaşmış mütəxəssislərlə təchiz olunub.

## Ekoloji monitorinqlər

Son illər Azərbaycanda ekoloji problemlərin həlli dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Ölkə rəhbərliyi tərəfindən ekoloji tədbirlərə diqqətin artırılması, ekoloji vəziyyətin yaxşılaşdırılması üzrə qəbul edilən proqramların nəticəsi olaraq ətraf mühitin mühafizəsi sahəsində kütləvi tədbirlərin həyata keçirilməsi ənənə şəklini alıb.

Monitorinqlərdə iaşə məntəqələrində, o cümlədən şadlıq saraylarında və istirahət mərkəzlərində istifadə olunan içməli suların ekoloji təmizliyi, kanalizasiya sistemlərinin fəaliyyəti, tullantıların toplanması və zərərsizləşdirilməsi qaydalarına əməl edilməsi və digər fəaliyyətlərə ekoloji nəzarətin səviyyəsi yoxlanılıb. Monitorinq zamanı, eyni zamanda şəhər ərazisində məişət tullantılarının toplanması üçün yerləşdirilmiş təmizlik qutularına baxış keçirilib və müəyyən edilib ki, havaların istiləşməsi, temperaturun artması ilə əlaqədar olaraq infeksion xəstəliklərin yaranması, ətraf mühitin iy, qoxu ilə çirklənməsinin qarşısının alınması məqsədilə tullantıların yığışdırılması soyuq havalara nisbətən daha tez-tez həyata keçirilməlidir.

Respublikanın bir sıra bölgələrində monitorinqlər zamanı əhalinin istifadə etdiyi içməli suların ekoloji-sanitar təmizliyinin yoxlanılıb, müəyyən edilmiş mənbələrdən su nümunələri götürülüb, fiziki və kimyəvi xassələrini öyrənmək məqsədilə analiz və təhlillər aparılıb. Əldə edilmiş nəticələr içməli suların ekoloji təmiz və içməli su kimi istifadəyə tam yararlı olduğunu müəyyən edib. Məişət və istehsalat tullantılarının toplandığı ərazilərdə, poliqonlarda tullantıların çeşidlənərək zərərsizləşdirilməsi, basdırılması, poliqon ərazisinin çəpərlənməsi sahəsində mövcud çatışmazlıqlar müəyyən edilib və aradan qaldırılması üçün aidiyyəti idarə və müəssisələrə tövsiyə-xəbərdarlıqlar olunub.

Abşeron yarımadasında neftqazçıxarma idarələrinin fəaliyyət zonalarında aparılan monitorinq işləri çərçivəsində əldə edilən məlumatların elektron operativ informasiya bazası yaradılmışdır. Aparılan monitorinqlərin nəticələrinə əsasən bu baza, mütəmadi olaraq, yeniləşdirilir. Ekoloji məlumat bazasının hazırlanması zamanı geniş həcmdə ekoloji monitorinq işləri aparılmış, müxtəlif informasiya mənbələrindən, müasir metodlardan, texniki avadanlıqlardan və laborator tədqiqatlardan istifadə olunmuşdur. Belə ki, ekoloji məlumat bazasında Abşeron yarımadasında neft və digər tullantılarla çirklənmiş, lay suları altında qalmış torpaq əraziləri və onların çirklənmə dərinliyi dəqiq koordinatlarla öz əksini tapmışdır. Xüsusi proqram təminatının köməkliyi ilə ekoloji monitorinq aparılan koordinatlar üzrə analiz nəticələrinin xəritə üzərində yerləşdirilməsi və həmin sahələrdə təkrar monitorinq aparılarkən, əldə olunan nəticələrin daima yeniləşməsinə imkan yaradır. Monitorinq aparılan sahələr üzrə ekoloji vəziyyətin dəyişmə tendensiyasını izləmək, qiymətləndirmək və ekoloji problemlərin idarə olunması mümkündür.



## Tullantıların idarə edilməsi

Tullantı əhalinin həyat fəaliyyəti nəticəsində yaşayış yerlərində əmələ gələn əşya, maddə və materiallar toplusudur. Tullantıların idarə edilməsi sisteminin təşkili zamanı təkrar xammal əldə etmək mümkündür ki, bu da, öz növbəsində, ekoloji və iqtisadi baxımdan əhəmiyyətlidir. Ən əsası isə, təkrar emal təbii resurslardan istifadəni minimuma endirir. Tullantıların idarə edilməsi sistemi onların yığılması, daşınması, təkrar emalı, ikinci dəfə istifadəsi və ya səmərəli istifadəsi, bütün prosesə nəzarətdən ibarət kompleks tədbirdir. Bu cür tədbirlər tullantıların insan sağlamlığına və ətraf mühitə mənfi təsirini azaltmaq üçün vacibdir.

"Təmiz Şəhər" ASC həm də bərk məişət tullantılarının çeşidlənməsinə böyük önəm verir. Bu istiqamətdə səhmdar cəmiyyət tərəfindən işlər görülməkdədir. Ümumiyyətlə, tullantıların idarə edilməsi sahəsində onların çeşidlənməsi və təkrar emalı mühüm utilizasiya üsullarındandır. Çeşidləmə həm də ucuz xammal bazarı, təbii sərvətlərə, enerjiyə, torpaq ərazilərinə qənaət deməkdir. Bütün bunlar nəzərə alınaraq tullantıların çeşidlənməsi "Təmiz Şəhər" ASC-nin tullantılarının idarə edilməsi siyasətinin vacib istiqamətlərindəndir. Hazırda Balaxanı poliqonu ərazisində bərk məişət tullantılarının çeşidlənməsi məntəqəsi fəaliyyət göstərir. Çeşidləmə məntəqəsində təkrar emala yararlı tullantılar çeşidlənir. Çeşidləmə zavodunun istismara verilməsi təbii sərvətlər və enerjiyə qənaəti, ən önəmlisi, ətraf mühitə mənfi təsirin azaldılmasını mümkün edir.

## Ekoloji təbliğat və maarifləndirmə işləri

Təmiz və sağlam mühitdə yaşamaq hər bir insanın hüququdur. İstəyirik ki, yediyimiz qida, içdiyimiz su, gəzdiyimiz küçələr, istirahət etdiyimiz parklar, bir sözlə, hər bir şey gözəl və təmiz olsun. Son illər bu sahədə atılan uğurlu addımlar problemin həllinə öz müsbət təsirini göstərib.

Belə ki, respublikanın müxtəlif regionlarının ali və orta təhsil müəssisələrində, idarə və təşkilatlarda "Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ekologiya və təbiət ərazilərinin inkişafına göstərdiyi diqqət və qayğı", "2010-cu il "Ekologiya ilidir", "Ətraf mühitin mühafizəsi hamımızın borcudur", "Yeni yaşıllıqların salınmasında və mühafizəsində gənc nəslin rolu", "Ətraf mühitin mühafizəsi - sağlamlığımıza təminatdır", "İnsan və Təbiət", "5 iyun Ümumdünya Ətraf Mühit Günüdür", "Yaşıllıqların mühafizəsi", "Uşaqlara təmiz su - təmiz həyat", "Selin yaranma səbəbləri və ona qarşı mübarizə tədbirləri" və s. mövzularda ekoloji təbliğat xarakterli seminar məşğələlər və görüşlər təşkil olunub.

Bu gün əhalinin ekoloji təhsili və maarifləndirilməsi dövlətin ekoloji siyasətində önəmli yer tutur. İnanırıq ki, əhali arasında genişmiqyaslı maarifləndirici tədbirlərin həyata keçirilməsi insanların ətraf mühitə daha qayğı ilə yanaşmasına imkan yaradacaqdır.

***Mamed Bağırov***

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür***

# Baş redaktor Əli Kərimlini belə ifşa etdi

## Sənan Nəcəfov: "FB özü saxta profillərlə bəyənilən səhifələri təmizləyir"

**Qhtxeber.az portalının baş redaktoru Sənan Nəcəfov "facebook" səhifəsində AXCP sədri Əli Kərimlini ifşa edən paylaşım edib. Belə ki, Ə.Kərimlinin sosial şəbəkələrdə onu tənqid edənləri "hakimiyyətin trolları" adlandırmasına münasibət bildirən baş redaktor statusunda AXCP sədrini blogger adlandıraraq, yazıb ki, əslində, onun özünün və ətrafının bir hissəsi saxta profillərdən, yəni trollardan ibarətdir. SİTAT: "...Deməк blogger Ə.Kərimli yenə oğru, troll, "qaytarın səhifəmi", məni CİA izləyir" söhbətləri edib və başdan-ayağa yalanla dolu status paylaşıb".**



"Maraqlı budur ki, adam torllardan və saxtakarlıqdan dəm vurur, özü bunun bariz nümunəsini nümayiş etdirir"-deyə qeyd edən Qhtxeber.az portalının rəhbəri sual verib və özü də bu



Shamo Memmedov Polad Aslanov və başqa 37 nəfərlə birlikdədir.
2 saat

başqa vaxt hamını troll çıxardırlar, çaşıb açıq statusda yazıb qoyun gədə )
kim bilir kimə göndərirdi ))

Bakhtiyar Yusubov
3 dəq.

ANONS!!!
Təxminən 25-30 dəqiqə sonra AXCP sədri Əli Kərimli öz səhifəsindən canlı yayımda olacaq. Yayımı dərhal paylaşmalı, müzakirələrdə aktiv iştirak etməliyik. Yaxşı olar ki şərhlərdə Milli Şuradan "ümumxalq mitinqləri çağırılsın" tələbləri irəli sürülməklə ictimai rəyi formalaşdıraq

Bəyən Rəy bildir

Bəyən Rəy bildir Paylaş

Shamo Memmedov və başqa 2 nəfər nəfər



sualın cavabını verib. Adam hansı halda öz statusunu bəyənə bilər?

1. Özünə aşırı vurğun olduqda (psixi xəstəlikdir).

2. Profili, eyni zamanda, bir neçə nəfər (trollar yanı) idarə etdikdə. Biri status yazır, o biri bəyənirsə və hər ikisi admindirsə, ümumi olaraq, "Ə.Kərimli" kimi görsənir.

İndi hansı versiya üzərində dayanaq?

Yazısının sonunda P.S qeydi edən Sənan Nəcəfov əlavə edib ki, baş verənlərin texniki izahını daha öncədən vermişdi: "Anlamaq lazımdır ki, FB özü saxta profillərlə bəyənilən səhifələri təmizləyir. Bax, məsələn, mən həm Cəmilin, həm Gültəkinin, səhifəsini bəyənmişəm. Real və aktiv profiləm deyə məni o səhifələri bəyənmədən silməyiblər. Yani saxtakarlığı özünüz edib, başqalarını saxtakarlıqda günahlandırmanız etik deyil, azından".



Senan Najafov
1 saat

Həəə, belə-belə işlər. Demək blogger Əli Kərimov yenə oğru, troll, "qaytarun səhifəmi", məni CİA izləyir" söhbətləri edib və başdanayağa yalanla dolu status paylaşıb.
Maraqlı budur ki, adam torllardan, saxtakarlıqdan dəm vurur, özü bunun bariz nümunəsini nümayiş etdirir. Adam hansı halda öz statusunu bəyənə bilər?
1. Özünə aşırı vurğun olduqda (psixi xəstəlikdir)
2. Profili eyni zamanda bir neçə nəfər (trollar yani) idarə etdikdə. Biri status yazır, o biri bəyənirsə və hər i... Daha Çox Gör

Ali Karimli (Əli Kərimli)
1 saat · Facebook for Android

Oğrular hakimiyyətinin kibercinayətkarlıqla məşğul olan dəstəsi bu dəfə də Milli Şura Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəylinin feysbuk səhifəsini ələ keçirmişdi. Gültəkin xanım səhifəsini artıq qaytarıb. Ancaq məlum olub ki, indiyəqədərki bütün paylaşımlar səhifədən silinib. Səhifəni bəyənənlərin sayı 120 min nəfərə qədəri bloklanaraq,...
Daha ətraflı

Ali Karimli (Əli Kərimli) və başqa 209 nəfər nəfər

81 Rəy 31 Paylaşma

Bəyən Rəy bildir Paylaş

Onu da qeyd edək ki, bu günlərdə digər media qurumu - Ə.Kərimlinin sədri olduğu AXCP-yə alternativ yaradılan AXCP-nin sədri Razi Nurullayevin nəzarətində olan saytdakı saxtakarlığı ifşa edib və cəbhəçilərin yalnız trollardan ibarət olduğunu qeyd edib. Daha dəqiq desək, yanlışlıqla "yurd"çulara gizli qrupda verilməli olan tapşırığın sosial şəbəkədə hər kəsə açıq şəkildə paylaşıldığını sübut edən fotonun yerləşdirildiyi informasiya bölümündə bildirilir. "Beləliklə, bu dəfə də Ə.Kərimli və trolları şəbəkə istifadəçilərinin gülüş obyektinə çevrilib"-deyə qeyd edilən məlumatda bildirilir. SİTAT: "Qeyd edək ki, paylaşımda Ə.Kərimlinin bir azdan canlı yayıma çıxacağı göstərilir və tapşırıqlar verilir: "Ə.Kərimli 25-30 dəqiqə sonra öz səhifəsinə canlı yayıma çıxacaq. Yayımı dərhal paylaşmalı, müzakirələrdə aktiv iştirak etməliyik. Yaxşı olar ki, şərhlərdə "Milli Şura"dan "ümumxalq mitinqləri çağırılsın" tələbləri irəli sürülməklə ictimai rəyi formalaşdıraq".

Göründüyü kimi, Ə.Kərimlinin trolları onun saxtakarlığını daha çox ifşa edir və maraqlısı da budur ki, AXCP sədri onu və ətrafını tənqid edənləri "saxtakar" adlandırmaqla özünün saxtakar olduğunu bariz şəkildə isbatlayır.

***Rövşən NURƏDDİNOĞLU***

# Meydan təfəkkürlü boşboğazlar yenə də sayıqlayırlar

## Əli Kərimlinin seçkiləri boykot iddiası hələ bir il öncə cızılmış plan idi



***Hər bir cəmiyyətin inkişafını şərtləndirən başlıca amil azad və demokratik seçkilərin keçirilməsidir. Qloballaşan dünyanın tərkib hissəsi olan Azərbaycan bu prinsiplərə və ənənələrə hər zaman sədaqətli olub. 1993-cü ildən bu günə qədər keçirilən bütün seçkilər beynəlxalq hüquq normalarına və prinsiplərə əsaslanaraq, baş tutub. Taleyüklü tədbirləri müşahidə etmiş yerli və beynəlxalq müşahidəçilər hər zaman, birmənalı olaraq, seçkilərin azad və ədalətli tərzdə keçirildiyini bəyan ediblər. Bütün bunların fonunda isə, uduzan və ağır seçki məğlubiyyətinə düçar olan dağıdıcı müxalif ünsürlər isə, hər zaman hay-küy qaldırıb, xarakterlərinə və aldıqları tərbiyəyə müvafiq olaraq, seçkilərin nəticələrinə kölgə salmağa çalışırlar. Amma boşboğazlıqlarından və hay-küylərindən savayı, onların əllərində heç nə qalmayıb. Təbii ki, xarici maraqlı qüvvələrin ayırdığı pullardan savayı.***

### 11 apreldən sonra Azərbaycanda yeni dönəm başlayır

Bəlli olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Sərəncamına əsasən, 2018-ci il aprelin 11-də ölkəmizdə növbədənkənar prezident seçkiləri keçiriləcək. Seçkilərin vaxtından əvvəl keçirilməsinin səbəbi kifayət qədər Prezident Aparatının rəsmi şəxsləri, eləcə də, ekspertlər tərəfindən göstərilsə də, dağıdıcı müxalifət ənənəsinə uyğun fikir yürütməkdədir. Baş-başa verən dağıdıcı müxalifətin ayrı-ayrı üzvləri seçkilərlə bağlı öz fantaziyaları və dayaz düşüncələrinə uyğun açıqlamalar verirlər. Cəmiyyətdə nifrət obyekti olan AXCP sədri Əli Kərimli bir qədər də dərinə gedərək, seçkilərin boykot ediləcəyi barədə bəyanatlar səsləndirir. Bununla kifayətlənməyən bu üzdəniraq siyasətçi ölkədə kütləvi aksiyalar təşkil edəcəyini bəyan edir.

Birincisi, bu, faktdır ki, partiyaların gücü və imkanları yalnız seçkidən-seçkiyə çıxa bilər. Əgər AXCP, eləcə də, "Milli Şura" ələ düşən bu fürsətdən yararlanmaq istəmirlərsə, deməli, bu qurumların başında dayananlar özlərinə qarşı inamsızdırlar. Yəqin ki, Ə.Kərimli və Cəmil Həsənli bunun fərqindədirlər. Digər tərəfdən, aksiyalar keçirməyə ümid bəsləmək, sadəcə, nadanlıqdan başqa bir şey deyil.

### Cəmiyyət müxalifəti qətiyyətlə rədd edir

Dəfələrlə "Milli Şura", eləcə də, Müsavat partiyası müxtəlif xarici ölkələrin sifarişi və göstərişi əsasında aksiyalar təşkil ediblər. Ancaq nə baş verib? Təşkil olunan mitinqlərə Ə.Kərimlinin və C.Həsənlinin dost-tanışlarından və yaxın qohumlarından başqa qatılan olmayıb. Bu baxımdan, mitinqlərə yüz minlərlə insanın qatılacağını iddia edənlər, sonradan qınlarına çəkilib susmaqdan başqa çıxış yolu tapmırlar. Deməli, prezident seçkiləri ərəfəsi Ə.Kərimlinin mitinqlər təşkil edəcəyini bəyan etməsi, sadəcə, xarici maraqlı qüvvələrin diqqətini özlərinə cəlb etməkdən başqa bir şey deyil. O ki qaldı seçkilərin necə keçiriləcəyi barədə suala, buna Azərbaycanın seçki ənənələri real faktlarla öz cavabını vermiş olur. Bu gün artıq 90-cı illər deyil. AXC-Müsavat cütlüyü bir dəfə seçki keçirdi, onun söz-söhbəti bu gün də səngimir. Bir neçə gün əvvəl, Müsavatın keçmiş başqanı İsa Qəmbərin yaxın müttəfiqi hesab olunan "GAP" lideri Rəsul Quliyev AXC hakimiyyətinin bugünkü yetkililərinin yaralarını qanadan növbəti açıqlama ilə bağlı çıxış edib. Bildirib ki, 1992-ci ilin iyun ayının 27-də keçirilən prezident seçkiləri saxtakarlıqla keçirilməklə, Əbülfəz Elçibəyin prezident seçilməsinə nail olunub. R.Quliyev bir sıra faktlar və arqumentlər göstərməklə, AXC hakimiyyətində təmsil olunmuş indiki müxalifət yetkililərini ifşa edib. Bütün bu faktlardan sonra AXCP sədri Ə.Kərimlinin 11 aprel prezident seçkiləri ilə bağlı ictimai rəyin yüksək fikirlərinə kölgə salmağa xidmət edən açıqlamalar verməsi və bəyanatlar səsləndirməsi həyasızlıqdan və öz gözündə tiri görməyib, başqasının gözündə tük axtarmaqdan başqa bir şey deyil.

***İ.ƏLİYEV***

# Sərdar Cəlaloğlu: "Problem müxalifətin özündədir"

***Müxalifətin bu ilin aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı qaldırdığı səs-küyün ardınca, düşərgənin digər təmsilçisi - ADP sədri Sərdar Cəlaloğlu həmfikirlərinə qarşı ittiham xarakterli çıxış edib.***

O, xüsusilə, dağıdıcı müxalifətin boş yerə haray saldığını da deyib və maraq doğuran xatırlatma edib. "Son referendumdan dərhal sonra biz növbədənkənar prezident seçkilərinin keçirilməsini gündəmə gətirmişdik. İndi növbədənkənar prezident seçkilərinin aprelin 11-nə təyin edilməsi konstitusiyaya uyğun addımdır"-deyə qeyd edən Cəlaloğlu, həmçinin, onu da bildirib ki, əslində, növbədənkənar prezident seçkilərinin təyin edilməsi gözlənilən idi: "Artıq 2-3 aydır ki, namizədlər məsələsi müzakirə olunurdu. Kimin ağlı başında idisə, anlayırdı ki, yaxın dövrdə seçkilər ola bilər. Bu mənada, müxalifət üçün bu seçkilər gözlənilməz olmamalı idi. Əgər gözlənilməz olubsa, problem müxalifətin özündədir".

### "2 ay zaman var və seçkidə iştirak etmək istəyən indidən hazırlıqlar görməlidir"

ADP sədri S.Cəlaloğlu əlavə edib ki, növbədənkənar prezident seçkiləri, digər müxalifət partiyalarından fərqli olaraq, ADP üçün çətinliklər yaratmır. "Yəni nəyin bahasına olursa-olsun, seçkilərdə iştirak prinsipi yoxdur" deyə qeyd edən S.Cəlaloğlu əlavə edib ki, 2 ay zaman var və seçkidə iştirak etmək istəyən indidən hazırlıqlar görməlidir. Göründüyü kimi, müxalifətçi partiya sədri düşərgədə süni səs-küyün yaradıldığını, habelə, boykot və s. kimi çağırışlar edənlərin yanlış düşüncədə olduqlarını bildirib. Daha dəqiq desək, düşərgə təmsilçilərinin, bütövlükdə, xalq və düşərgə adından danışmaları, hətta kütləvi aksiyalara çağırışlar etmələri siyasi dividend qazanmağa cəhddən başqa bir şey deyil. Seçkilərdə iştirak etmək istəyənlər etməli, istəməyənlər isə öz zəifliklərini etiraf etməlidirlər. Əks halda onlar tərəfindən irəli sürülən istənilən ittihamlar yararsız və lüzumsuzdur.

***R.RƏSULOV***

# Müasir demokratik Azərbaycanda azadlıq hüququnun gerçəkləşməsi

***Hazırda bu, ölkəmizin daxili siyasətinin çox mühüm istiqaməti kimi çıxış edir: Xalqımızın Ümummilli Lideri Heydər Əliyev ölkəmizin müasir mərhələdə yeritdiyi daxili siyasətin əsas istiqamətlərini müəyyənləşdirərək, demişdir: "... daxili siyasət Azərbaycanda demokratik hüquqi dövlət qurmaq, bazar iqtisadiyyatı yaratmaq və iqtisadi islahatlar aparmaqdan, Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq, hüquqlarının qorunmasını təmin etmək və öz rifah halını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarətdir".***

Hazırda cəmiyyətimizdə şəxsiyyətin hüquq və azadlıqlarına dövlət tərəfindən iqtisadi, siyasi və hüquqi baxımdan real təminat verilir. Azərbaycanın müstəqil milli iqtisadiyyatının möhkəmləndirilməsi yolunda mühüm irəliləyişlər, beynəlxalq miqyaslı neft, qaz və enerji layihələrinin işlənilməsi və həyata keçirilməsində fəal iştirakı, əhalinin sosial rifah halının və mədəniyyətinin inkişafı, düşünülmüş xarici siyasət strategiyasının uğurları, bütövlükdə, hüquq sisteminin qeyd olunan istiqamətdə inkişaf etdirilməsi üçün real şərait yaradır. Bu münasibətdə, müstəqilliyin ilk dövrlərində qanuni hökuməti devirməyə, ölkədə hakimiyyətsizlik mühiti və vətəndaş qarşıdurması yaratmağa yönəlmiş cəhdlərin dəf olunması, qanunsuz silahlı dəstələrin və cinayətkar qrupların ləğv edilməsi sahəsində dövlətimizin və hüquq-mühafizə orqanlarının fəaliyyəti, həm də ölkəmizin vətəndaşlarının həqiqi hüquq və azadlıqlarının müdafiəsi demək idi. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə müstəqil respublikamızın Konstitusiyasının qəbul olunması (2002-ci ilin avqustunda keçirilmiş referendium əsasında ona dövrün tələblərindən irəli gələn bir sıra dəyişikliklər edilmişdir) milli dövlətçiliyin qorunmasında prinsipcə yeni mərhələni yaratdı. Həmin dövrdən etibarən dövlətçiliyin möhkəmləndirilməsi, demokratiyanın genişləndirilməsi, vətəndaş cəmiyyəti əsaslarının yaradılması prosesləri daha uğurla və sürətlə həyata keçirilməyə başladı. Onlarla paralel surətdə vətəndaşların hüquq və azadlıqları daha da genişlənir və təkmilləşir. Ölkəmizdə açıq, demokratik cəmiyyətin əsaslarının yaradılması, hüquqi dövlətin formalaşması prosesində totalitar rejimin insan hüquqları və azadlıqları qarşısında yaratdığı sədlər qətiyyətlə aradan qaldırılır və qərarlaşmaqda olan yeni tipli hüquq sistemi cəmiyyət üzvlərinin azadlıqlarını daha dolğun reallaşdırmağa yönəlir. Hüquq sistemində baş verən əsaslı islahatlar bu məqsədin həyata keçirilməsini asanlaşdırır. Qanunlarda və digər normativ aktlarda ümumi birgə yaşayış qaydalarının və yüksək humanist dəyərlərin təsbit olunması, azadlığın hərtərəfli həyata keçirilməsinə real hüquqi zəmin yaradır. Bu işdə hüquq normalarının səmərəli tətbiqi mexanizminin işlənilib-hazırlanması və həyata keçirilməsi müstəsna əhəmiyyətə malikdir. Bunsuz hüquq normaları və bütövlükdə, hüquq sistemi ilə ictimai gerçəklik arasında ahəngdarlıq təmin oluna bilməz. Hüququn öz başlıca tənzimləyici funksiyasını normal yerinə yetirməsi qeyri-mümkün olar.

Müstəqillik əldə olunan vaxtdan, keçən qısa müddət ərzində, qanunvericiliyin müxtəlif istiqamətlərinin təkmilləşməsi, hakimiyyət bölgüsü prinsipinin dəqiq tətbiqi, hüquq normaları sisteminin inkişaf etdirilərək, qabaqcıl dünya standartlarına uyğunlaşdırılması sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. Bütün bunlar özünün müvafiq ifadəsini ölkəmizin vətəndaşlarının hüquqları və azadlıqlarının genişləndirilməsi prosesində də tapmışdır. İndi Azərbaycanda fəaliyyət göstərən hüquq sisteminin bütün tərəfləri (əsas qanunların və digər normativ qanuni aktlardan başlayaraq, yerli dövlət orqanlarının qərarları və sərəncamlarına qədər) insanların və vətəndaşların hüquq və azadlıqlarını təmin etməyə yönələn ardıcıl xətt yerinə yetirir. Bu, təsadüfi olmayıb, onunla izah edilir ki, demokratikləşmə və hüquqi dövlət quruculuğu yolunda uğurla irəliləmək üçün, yeni cəmiyyətin müvafiq hüquqi bazasının yaradılması zəruridir. Bu münasibətdə hüquq sistemində aparılan əsaslı islahatlar, prokurorluq və məhkəmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə yönələn qərarlar və tədbirlər müstəsna dərəcədə böyük əhəmiyyətə malikdir. Onlar eynilə də vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsinin və real həyata keçirilməsinin təmin olunması baxımından misilsiz rol oynayır. Azərbaycan Respublikasının Konstitusiyasında ölkəmizin vətəndaşlarının hüquq sistemi ilə tənzimlənən genişmiqyaslı azadlıqları ifadə olunmuşdur. Əsas Qanunun 50-yə qədər maddəsində insanın hüquq və azadlıqlarının müxtəlif tərəfləri öz əksini tapmışdır. Bu sənədin 24-cü maddəsində yazılmışdır: "Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır" Konstitusiyamızın 28-ci maddəsində bu müddəa daha da dəqiqləşdirilərək deyilir: "Hər kəsin azadlıq hüququ vardır. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada məhdudlaşdırıla bilər".

Əsas Qanunda təsbit olunmuş hüquq və azadlıqlar, əhatə dairəsinə görə, çox genişdir. Onları siyasi, sosial-iqtisadi və şəxsi azadlıqlara ayırmaq olar. Siyasi hüquqlar və azadlıqlar qrupunda (bunu bəzən vətəndaşların demokratik hüquq və azadlıqları adlandırırlar) aşağıdakılar əsas yeri tutur: cinsindən, milliyyətindən, dini mənsubiyyətindən və s. göstəricilərdən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyi; fikir və söz azadlığı; sərbəst toplaşmaq azadlığı; icazəli mitinqlər və yığıncaqlar keçirilməsi, küçə yürüşləri və nümayişlər keçirmək azadlığı; vətəndaşların müxtəlif ictimai təşkilatlarda birləşmək hüququ; geniş demokratik seçki hüquqları və sair.

Sosial-iqtisadi sahədə başlıca hüquq və azadlıqlar bunlardır: mülkiyyət hüququ, xüsusi mülkiyyətin qanunla qorunması, əmək hüququ, istirahət hüququ, sosial təminat hüququ, təhsil hüququ, azad sahibkarlıq hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ və sair.

Şəxsi azadlıqların siyahısı da xeyli dərəcədə zəngindir: buraya şəxsiyyətin toxunulmazlığı hüququ, milli mənsubiyyət hüququ, mənzil hüququ, ana dilindən sərbəst istifadə, şərəf və ləyaqətin müdafiəsi, vicdan azadlığı, müttəhimin özünü müdafiə hüququnun təmin edilməsi və sair daxildir.

Fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev göstərir ki, qeyd olunan hüquqlar və azadlıqlar formal xarakter daşımır. Ölkəmizdə fəaliyyət göstərən dövlət və hüquq-mühafizə orqanları, bütövlükdə, hüquq sistemi onların real həyata keçirilməsini təmin edir. Bu istiqamətdə vətəndaşların qarşısında yaradılan hər hansı manеə və çətinliklər qətiyyətlə aradan qaldırılır. Bütün bunlar, subut edir ki, hüquqi dövlət quruculuğu prosesində vətəndaşların azadlıqlarını reallaşdırmaq üçün çox geniş imkanlar açılır və real təminatlar verilir. Bununla əlaqədar, qeyd edək ki, cəmiyyətdə müəyyən qüvvələrin iradəsi ilə, yaxud da ümumi xeyirxah ideallı ifadə edən xoş niyyətlərin təzahürü kimi genişmiqyaslı hüquq və azadlıqlar rəsmi surətdə elan edilə bilər, onların əsas qanunda hüquqi cəhətdən təsbit olunması da mümkündür. Lakin bu, hələ cəmiyyətdə real hüquq və azadlıqların təmin olunması demək deyildir. Bunun üçün cəmiyyətin, ictimai inkişafın müvafiq səviyyəsinə malik olmaq tələb olunur. Əgər mövcud ictimai quruluş öz üzvlərinə rəsmi elan olunmuş hüquq və azadlıqları həyata keçirmək üçün real şərait yaratmırsa, onda sonuncular həyatilikdən məhrum olur, havada asılı qalır. Buradan aydın olur ki, qanunlar əsasında insanlara azadlıqların bəyan edilməsi ilə onların faktiki həyata keçirilməsi arasında uyğunluq təmin olunmalıdır. Məsələyə bu səpkidə yanaşdıqda, göstərilməlidir ki, sosializm dövründə də vətəndaşların müəyyən hüquq və azadlıqlara malik olduqları qanunvericilikdə, rəsmi bəyanatlarda elan olunurdu, lakin onların həyata keçirilməsi mexanizmləri zəif idi və real təminat yox idi. Bundan fərqli olaraq, milli müstəqillik dövrünün hüquq sistemində məsələnin bu tərəfinə xüsusi diqqət yetirilir. Azadlıqların yerinə yetirilməsinə dövlət təminatı verilir. Azərbaycan Respublikasının Konstitusiyasının 26-cı maddəsində deyilir: "Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir".

Burada belə bir məqamı da vurğulamaq yerinə düşər ki, dövlət, insanların bu sahədə elan olunmuş müddəaların reallaşmasına, sadəcə, təminat verməklə məhdudlaşmır, həm də onu öz fəaliyyətinin əsasına qoyur. Əsas Qanunun 12-ci maddəsində deyilir: "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir".

Bu məsələdən danışarkən, belə bir cəhət də qeyd olunmalıdır: ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının özü bir yerdə dayanıb-durmur, cəmiyyətimiz inkişaf etdikcə, onların məzmunu və əhatə dairəsi genişlənir, yeni-yeni formalar kəsb edir. Məsələn, siyasi sferada hər bir vətəndaşın siyasi proseslərdə və idarəçilikdə fəal iştirakının təmin edilməsi, həmin məqsədlə seçki sisteminin demokratik prinsiplərinin daha da təkmilləşdirilməsi başlıca istiqamət kimi çıxış edir. Yaxud da iqtisadi həyatda bazar münasibətləri inkişaf etdikcə, azad sahibkarlığa şərait və imkanlar yaradan hüquq və azadlıqlar durmadan genişlənir. Eynilə də ölkəmizdə vətəndaşların şəxsi hüquqları və azadlıqlarının durmadan artması meyili müşahidə edilir. Qeyd olunan prosesdə söz azadlığı,yüzlərlə mətbuat orqanının senzurasız nəşr edilməsi, özəl televiziya və radio kanallarının sayının çoxalması da mühüm əhəmiyyət kəsb edir.

Fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev göstərir ki, hüquq sisteminin azadlığının reallaşmasına hərtərəfli imkanlar açdığını həm də bunda görmək olar. Ölkəmizdə hüquq və azadlıqların qorunmasına yönəlmiş dövlət məcburiyyət sisteminin tətbiq olunması, bəzi hallar (vətənə xəyanət, casusluq, ağırlaşdırıcı şəraitdə qəsdən adam öldürmək və sair) istisna olunmaqla, özündə həm də tərbiyəvi təsiri ifadə edir. Belə ki, məcburiyyət və cəzalandırma əksər hallarda bu və ya digər fərdlərin özbaşınalığına qarşı çevrilir, ümumi cəmiyyətin maraqları naminə həyata keçirilir. Buna görə də, tərbiyəvi və humanist məna alır. Dünyanın qabaqcıl dövlətlərinin qazandığı uğurlar, habelə, ölkəmizin bu sahədə əldə etdiyi təcrübə sübut edir ki, demokratiya hərc-mərclik, xaos və özbaşınalıq deyildir. O, yalnız ictimai-siyasi sabitliyin, qanunların aliliyinin hökm sürdüyü şəraitdə mövcud ola və öz hüdudlarını genişləndirərək, inkişaf edə bilər. Ölkəmizdə əsas qanunvericilik orqanı olan Milli Məclisə keçirilmiş seçkilər, digər hakimiyyət və yerli idarəçilik orqanlarının formalaşmasında xalqın geniş təbəqələrinin yaxından və fəal iştirakı, onların demokratik ab-hava şəraitində öz azadlıqlarını reallaşdırdığına əyani sübutdur. Bununla əlaqədar olaraq, belə bir məqam da diqqəti cəlb edir. Qanunların özü hələ real hüququ təmin etmir. Sonuncu, insanlar arasında fəaliyyətin müxtəlif sahələrində azadlığın tənzimləyicisi funksiyası yerinə yetirdikdə, öz adekvat mənasını kəsb edir. Qeyd olunan tərəflər arasında uyğunsuzluq özünü göstərdikdə, bundan vətəndaşların real azadlıqları daha çox zərər çəkir. Sözügedən məqam, qanunlarda bu və ya digər baxımdan boşluqlar olduqda, onların real təsiri mexanizmi işlənib hazırlanmadıqda, daha aydın üzə çıxır.

Dövlətin və bütövlükdə, hüquq sisteminin vətəndaşların azadlıqları üçün təminat verməsi öz ifadəsini cəmiyyətdəki ictimai təşkilatların və birliklərin fəaliyyəti ilə bağlı məsələlərin həllində də tapır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 7 fevral


## Gömrükdən alt paltarında heroin keçirən şəxs yaxalandı



İrandan Azərbaycana narkotika keçirən şəxs yaxalanıb. Dövlət Gömrük Komitəsindən SİA-ya verilən məlumata görə, Biləsuvar Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olmuş məlumat əsasında idarənin “Qoşa Təpə” Gömrük postunda İran İslam Respublikasından ölkəmizə piyada gələn Azərbaycan Respublikası vətəndaşı saxlanılıb və onun üzərində şəxsi yoxlama aparılıb. Yoxlama zamanı onun üzərindən, əynində olan alt paltarından gömrük nəzarətindən gizlədilən, selofana bükülü vəziyyətdə 2 ədəd bükümdə xalis çəkisi 150,764 qram olan narkotik vasitə-heroin aşkar olunaraq götürülüb. Faktla bağlı araşdırma aparılır.

## Sükan arxasında yemək yeyənlər bunu mütləq oxusun!



Bir çoxları sükan arxasında qidalanmanı vərdiş halına salıb. Xüsusilə uzaq yol gedənlər və vaxtının çox avtomobildə keçirənlər bunu edir. SİA-nın məlumata görə, tanınmış dietoloq Leyla Zülfüqar açıqlamasında bildirib ki, tələsik qidalanma daha çox meqapolislərdə yaşayan insanlarda müşahidə edilir: “İşə yetişərkən və sair işlərin arxasınca gedərkən sükan arxasında qidalanırlar. Bu zaman isə daha çox fastfoodlara üstünlük verilir. Tez hazırlanan fastfood qidalarının ziyanlı olması barədə hər zaman danışırıq. Çünki bu qidaların bişirilmə forması yanlışdır. Bədəndə mübadilə sisteminin pozulmasına səbəb olan ən başlıca amildir”.

Ekspertin sözlərinə görə, əslində bu qidalara alternativ yaratmaq mümkündür: “Tutaq ki, insan az vaxtda qida hazırlamalıdır və sükan arxasında yeməlidir. Bu zaman fastfood əvəzinə, çiy tərəvəzlər, meyvə, meyvə qurusu istifadə etmək daha məqsədəuyğundur”. Məlumat üçün bildirək ki, “Yol hərəkəti haqqında” qanunvericiliyə əsasən sükan arxasında qidalanma qayda pozuntusu hesab edilmir.

## Su ekzemanın qarşısını alır



Ekzema kifayət qədər yayılmış, xroniki residivləşən dəri xəstəliyidir. Statistikaya əsasən, dəri xəstəliklərinin təxminən 30-40 faizini ekzema təşkil edir. Xəstəlik bütün yaş qrupu insanlarda ola bilər. Ekzema ilk dəfə, əsasən, uşaq yaşlarında özünü göstərir. Problemin əmələgəlmə səbəbləri tibbə hələ də məlum deyil. Lakin bəzi amillər bu xəstəliyin inkişafına təkan verə bilər. Bunlara misal olaraq, irsiyyət, psixiki travmalar, şəkərli diabet, qalxanvari vəzi, həzm sistemi, varikoz kimi xəstəliklər, allergiyalar, bəzi kimyəvi maddələrlə uzun müddət təmasda olmaq, mikroblar, göbələklər kimi səbəblər ola bilər. AZƏRTAC Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasına istinadla xəbər verir ki, soyuq havalarda bol su içmək ekzemanın qarşısını almağa kömək edir. Belə ki, soyuq havaya məruz qalan dəri nəmliyini itirərək quruyur. Bu da bəzi insanlarda ekzemaya və qaşıntıya səbəb olur. Ümumiyyətlə, soyuq hava dəriyə, o cümlədən hüceyrələrə, toxumalara, dərialtı piy toxumasına bilavasitə zərər verir. Bundan əlavə soyuq hava dərini qidalandıran damarların vazospazmına səbəb olur. Bütün bunların qarşısını almaq üçün mütəmadi olaraq bol su içilməli və nəmləndirici kremlərdən istifadə edilməlidir.

## “Real”-PSJ oyununa biletlərin satışı 1 saat çəkib



Futbol üzrə UEFA Çempionlar Liqasının səkkizdəbir final mərhələsində İspaniyanın “Real” və Fransanın PSJ klubları arasında keçiriləcək ilk matçın biletləri sərbəst satışda artıq qalmayıb. AZƏRTAC xəbər verir ki, İspaniya klubunun azarkeşlərinə bütün boş yerləri almaq üçün təxminən 37 dəqiqə lazım gəlib. İndi biletlər yalnız müxtəlif proqramlarda ikinci əldən satılır və qiymətlər 300-24 min avro arasında dəyişir.

Madridlilər dəfələrlə bu kimi təşəbbüslərə qarşı çıxış ediblər. Çünki əldən bilet alan fanatların stadiona buraxılacağına zəmanət verilmir. Xatırladaq ki, “Real” və PSJ arasında ilk görüş fevralın 14-də Madridin “Santiago Bernabeu” stadionunda baş tutacaq. Cavab görüşü martın 6-na nəzərdə tutulub.

## “Çelsi” rüsvayçı məğlubiyyətə uğrayıb



İngiltərə Premyer Liqasının 26-cı turunda “Çelsi” klubu “Uotford”la qarşılaşıb. AZƏRTAC xəbər verir ki, “Uotford”un “Vikaric Roud” stadionunda keçirilən görüşdə “Çelsi” ağır məğlubiyyətə uğrayıb - 4:1. Oyunun 30-cu dəqiqəsində Tyemue Bakkayoko ikinci sarı vərəqə alaraq “Çelsi”ni azlıqda qoyub. Qeyd edək ki, “Çelsi” 50 xalla İngiltərə çempionatının turnir cədvəlində 4-cü pillədə qərarlaşıb. “Uotford” isə 30 xalla 11-ci yerdədir.

## “Atletiko” Şime Vrsalko ilə müqaviləni yeniləyib




Madrid “Atletiko”su futbol klubu müdafiəçi Şime Vrsalko ilə müqaviləni yeniləyib. Klubun rəsmi saytında yer alan xəbərə görə, 26 yaşlı xorvatiyalı futbolçu ilə 2022-ci ilin yayınadək anlaşma imzalanıb. Qeyd edək ki, qış transferi dövründə “Napoli” futbolçu ilə maraqlanıb.

## “Barselona” şokda: Pike 3 oyunluq cəzalandırılacaq



“Barselona”nın futbolçusu Jerard Pike cəzalandırıla bilər. Qol.az-ın “Marca”ya istinadən yaydığı xəbərə görə, buna onun La Liqanın 22-ci turunda “Espanyol”a qarşı oyunda (1:1) etdiyi hərəkət səbəb ola bilər. Sözügedən matçda 31 yaşlı müdafiəçi bərabərlik qolunu vurduqdan sonra sevincini qeydə edən zaman şəhadət barmağını dodağına qoyaraq “Espanyol” azarkeşlərinə göstərib. Matçdan sonra Pike bildirib ki, bu, onun ailəsini təhqir edən rəqib azarkeşlərə cavabı olub. Pikenin azarkeşlərə qarşı bu hərəkətinə görə 3 oyuna qədər cəzalandırıla biləcəyi vurğulanıb.

## Sərbəst güləşçilərimiz beynəlxalq turnirində mübarizə aparacaqlar



Fevralın 8-dən 9-dək Təbrizdə sərbəst güləş üzrə böyüklər arasında ənənəvi “Təxti Kuboku” beynəlxalq turniri keçiriləcək. Azərbaycan Güləş Federasiyasının məlumatında deyilir ki, 23 ölkədən 190-a yaxın idmançının iştirak edəcəyi turnirdə təmsilçilərimiz də mübarizə aparacaqlar.

Məşqçilər Arif Abdullayev və Nazim Əlicanovun rəhbərliyi altında qonşu ölkəyə 10 idmançımız yollanıb. Heyətdə Pərviz İbrahimov, Elçin Vəliyev (hər ikisi 61 kq), Pənah İlyaslı, Coşqun Əzimov (hər ikisi 70 kq), Murad Süleymanov (79 kq), Hacımurad Məhəmmədsəidov, İbrahim Yusubov (hər ikisi 86 kq), Cavid Sadıqov (92 kq), Roman Bəkirov (97 kq) və Umar İsrailov (125 kq) yer alıblar. Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Babək Allahverdiyev təmsil edəcək.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**